

Elektrik enerjisi sahəsi Azərbaycanın sosial problemlərinin həll olunmasında xüsusi rol oynayır.
Heydər Əliyev

# Azərbaycan işıqları

“Azərenerji” ASC-nin orqanı | 19 YANVAR 2016-cı il ÇƏRŞƏNBƏ AXŞAMI | № 1 (1127) | www.azerenerji.gov.az


*“...Bütün çətinliklərə, beynəlxalq iqtisadi böhranlara, siyasi-hərbi böhranlara baxmayaraq, Azərbaycan inamla irəliyə gedəcək. Azərbaycanda sabitlik təmin edilir, ictimai-siyasi vəziyyət müsbətdir. Azərbaycanda xalqla iqtidar arasında birlik möhkəmlənir və bu amillər bizim uğurlu inkişafımızı şərtləndirir”.*

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti



**20 YANVAR ÜMUMXALQ HÜZN GÜNÜDÜR.**
**Allah bütün şəhidlərimizə rəhmət eləsin.**

## RƏSMİ XRONİKA

**31 dekabr**

■ Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə Azərbaycan xalqını təbrik edib.

**5 yanvar**

■ Prezident İlham Əliyev Azərbaycanın pravoslav xristian icmasını müqəddəs Milad bayramı münasibətilə təbrik edib.

**10 yanvar**

■ Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2015-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib.

**11 yanvar**

■ Prezident İlham Əliyev Bakının Suraxanı rayonunda “ATEF Şirkətlər Qrupu”nun iri qabaritli transformatorlar zavodunun açılışında iştirak edib, yüksək gərginlikli avadanlıqlar istehsalı zavodunun təməlini qoyub.

■ Prezident İlham Əliyev “2016-cı ilin Azərbaycan Respublikasında “Multikulturalizm ili” elan edilməsi haqqında” Sərəncam imzalayıb.

■ Prezident İlham Əliyev müasir Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü, xalq şairi Zəlimxan Yaqub ilə Təzəpir məscidində keçirilən vida mərasimində iştirak edib.

**12 yanvar**

■ Prezident İlham Əliyevin sərəncamları ilə Nərgiz Akif qızı Qurbanova Azərbaycan Respublikasının Bolqarıstan Respublikasında fövqəladə və səlahiyyətli səfiri, Murad Nizami oğlu Nəcəfbəyli Azərbaycan Respublikasının Estoniya Respublikasında fövqəladə və səlahiyyətli səfiri, Məmməd Bahəddin oğlu Əhmədzadə Azərbaycan Respublikasının İtaliya Respublikasında fövqəladə və səlahiyyətli səfiri, Daşqın Məzi oğlu Şikarov Azərbaycan Respublikasının Birləşmiş Ərəb Əmirliklərində fövqəladə və səlahiyyətli səfiri təyin ediliblər.

■ Prezident İlham Əliyev Əlcəzair Xalq Demokratik Respublikasının və Monqolustanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfirləri Lahssan Boufaresin və Badamdorj Batxişiqin etimadnamələrini qəbul edib.

■ Prezident İlham Əliyev İstanbulun Sultanəhməd meydanında törədilmiş faciə ilə əlaqədar Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana dərin hüznlə başsağlığı verib.

**13 yanvar**

■ Prezident İlham Əliyev Vüsal Ağaməmməd oğlu Kərimlinin Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Bakı Nəqliyyat Agentliyinin Baş direktoru təyin edilməsi haqqında Sərəncam imzalayıb.

■ Prezident İlham Əliyev ABŞ-ın Milli Təhlükəsizlik Şurasının Avropa üzrə baş direktoru Çarlz Kapçanı qəbul edib.

■ Prezident İlham Əliyev Azərbaycan Respublikasının hüquq-mühafizə orqanlarında uzunmüddətli səmərəli fəaliyyətinə görə Zakir Bəkir oğlu Qaralovu “Şöhrət” ordeni ilə təltif edib.

■ Prezident İlham Əliyev “Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin fəaliyyətinin təmin edilməsi haqqında” Fərman imzalayıb.

**14 yanvar**

■ Prezident İlham Əliyev Pakistan İslam Respublikasının Hərbi Dəniz Qüvvələrinin komandanı Muhammad Zakaullahı qəbul edib.

■ Prezident İlham Əliyev “Azərbaycan Respublikasının Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi ilə Çin Xalq Respublikasının Energetika üzrə Dövlət İdarəsi arasında Anlaşma Memorandumunun təsdiq edilməsi haqqında” Fərman imzalayıb.

**15 yanvar**

■ Prezident İlham Əliyevin imzaladığı fərmana əsasən, Nazirlər Kabineti yanında Dövlət Bayrağı Meydanı Kompleksi İdarəsi və Dənizkənarı Bulvar İdarəsi birləşdirilərək, onların əsasında Nazirlər Kabineti yanında Dənizkənarı Bulvar İdarəsi yaradılıb.

■ Prezident İlham Əliyevin imzaladığı fərmana əsasən, Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyi Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi adlandırılıb.

■ Prezident İlham Əliyev “Azərbaycan Respublikasının Satınalmalar üzrə Dövlət Agentliyinin ləğv edilməsi haqqında fərman imzalayıb. Fərmana əsasən, Agentliyin vəzifə və funksiyaları, habelə istifadəsində olan dövlət əmlakı Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidmətinə verilib.

■ Prezident İlham Əliyev Ramin Namiq oğlu Quluzadənin Azərbaycan Respublikasının rabitə və yüksək texnologiyalar naziri, Oqtay Qəşəm oğlu Şahbazovun Azərbaycan Respublikası Prezidentinin İşlər müdiri, İlqar Əziz oğlu Mustafayevin Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Dənizkənarı Bulvar İdarəsinin rəisi, Şahin Abdulla oğlu Mustafayevin Azərbaycan Respublikasının iqtisadiyyat naziri təyin edilməsi haqqında sərəncamlar imzalayıb.

# *Prezident İlham Əliyev:*
# “Bütün çətinliklərə, beynəlxalq iqtisadi böhranlara, siyasi-hərbi böhranlara baxmayaraq, Azərbaycan inamla irəliyə gedəcək”

**♦ “Azərbaycan müsəlman aləminin ayrılmaz hissəsidir. Eyni zamanda, bizi Avropa ölkələri ilə dərin əlaqələr bağlayır. Biz siyasi, iqtisadi, enerji sahələrində, başqa sahələrdə uğurla əməkdaşlıq edirik. Biz həmişə çalışırıq ki, dinlərarası, sivilizasiyalararası dialoq daha da güclənsin. Biz bu işə öz töhfəmizi vermişik və öz nümunəmizi ortaya qoymuşuq”. Bu sözləri yanvarın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2015-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan ilcasında dövlətimizin başçısı bəyan edib.**



### Azərbaycan regionda sabitləşdirici rol oynayır

Prezident İlham Əliyev deyib ki, 2015-ci ildə dünyada iqtisadi böhran daha da dərinləşib. Bizim regionumuzda isə iqtisadi böhranla yanaşı, siyasi və hərbi böhran müşahidə olunur. Əfsuslar olsun ki, mövcud olan münaqişələr 2015-ci ildə öz həllini tapmadı. Əksinə, dünyada və xüsusilə bizim regionumuzda yeni təhlükə ocaqları yarandı. Regionumuzun ümumi inkişafına mənfi təsir göstərən bu hadisələr bizi ciddi narahat edir. Çünki biz də bu regionda yaşayırıq və regionda baş verən hadisələr istər-istəməz bizə də öz təsirini göstərir.

Dövlətimizin başçısı deyib ki, Azərbaycan 2015-ci ildə uğurla inkişaf edib, qarşıda duran bütün vəzifələr icra olunub, ölkəmizin beynəlxalq nüfuzu daha da artıb. Bizim beynəlxalq təşkilatlardakı fəaliyyətimiz çox uğurlu olub. Azərbaycan bütün məsələlərlə bağlı öz prinsipial mövqeyini ifadə edir. Bizim mövqeyimiz haqq-ədalət, beynəlxalq hüquq əsasında formalaşır. Azərbaycan bundan sonra da regionda sabitləşdirici rol oynamağa çalışacaq.

### Hərbi potensialımız möhkəmlənib

“Əfsuslar olsun ki, 2015-ci ildə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı heç bir irəliləyiş olmamışdır. Deyə bilərəm ki, danışıqlar istiqamətində durğunluq müşahidə olunurdu. Sadəcə olaraq, ilin sonunda Ermənistan və Azərbaycan prezidentlərinin görüşü keçirilmişdir. Bu görüş də deyə bilərəm ki, formal xarakter daşıyırdı - görüş naminə görüş. Çünki 2015-ci ildə prezidentlər səviyyəsində görüş keçirilməmişdir. Ancaq bu görüşün heç bir faydası, yaxud da ki, nəticəsi olmamışdır. Bunun da səbəbi ondan ibarətdir ki, Ermənistan sülh istəmir”, - deyə dövlətimizin başçısı bəyan edib.

Prezident İlham Əliyev deyib ki, Azərbaycanın mövqeyi tam fərqlidir, biz münaqişənin həllini istəyirik. Vasitəçilər də, Minsk qrupunun həmsədrləri də dəfələrlə bildiriblər ki, onlar da münaqişənin həllini istəyirlər. Ancaq əfsuslar olsun ki, işğalçıya bu istiqamətdə heç bir ciddi təzyiq göstərilmir. Minsk qrupunun həmsədr ölkələrinin dövlət başçıları bir neçə dəfə bəyan ediblər ki, status-kvo qəbuledilməzdir. Ancaq status-kvonun dəyişdirilməsi üçün heç bir konkret addım atılmır. Status-kvonun dəyişdirilməsi o deməkdir ki, işğala son qoyulacaq. Azərbaycan öz mövqeyini bundan sonra da müdafiə edəcək. Bizim mövqe beynəlxalq hüquq norma və prinsiplərinə əsaslanır. BMT Təhlükəsizlik Şurası dörd qətnamə qəbul edib ki, erməni işğalçı qüvvələri torpaqlarımızdan dərhal və qeyd-şərtsiz çıxarılsın.

“Azərbaycanın hərbi potensialı 2015-ci ildə böyük dərəcədə möhkəmlənmişdir. Biz bunu döyüş meydanında da görürük. 2015-ci ildə təmas xəttində Azərbaycan tam üstünlük təmin etmişdir və öz iradəsini diktə etmişdir. Onlarla işğalçı məhv edildi, Ermənistan rəhbərliyi panikadadır, isterikadadır, xarici qüvvələrə müraciət edir ki, onları müdafiə etsinlər. Ancaq sual olunur: Erməni əsgərləri hansı torpaqda həlak olurlar? Azərbaycan torpağında həlak olurlar. Getsinlər, çəkilsinlər bizim torpaqlarımızdan, bu zaman münaqişəyə son qoyular, heç kim həlak olmaz və sülh bərpa edilə bilər”, - deyən ölkə rəhbəri bildirib ki, biz bundan sonra da siyasi, diplomatik və iqtisadi rıçaqlardan istifadə edəcəyik, eyni zamanda, döyüş potensialımızı gücləndirəcəyik və beləliklə, münaqişənin həllini yaxınlaşdıracağıq.

### 2015-ci ildə iqtisadiyyatımız inkişaf edib

Prezident İlham Əliyev bildirib ki, 2015-ci ildə Azərbaycan iqtisadiyyatı inkişaf edib. Əlbəttə ki, əvvəlki illərdə olan inkişaf əldə edilməyib və bu mümkün deyildi. Çünki neftin qiyməti 3-4 dəfə aşağı düşüb. Manatın məzənnəsi devalvasiyaya uğrayıb ki, bu da qaçılmaz idi. Çünki neftin qiymətinin 3-4 dəfə aşağı düşməsi manatın məzənnəsinin əvvəlki səviyyədə qalmasına imkan vermirdi. Eyni zamanda, bizim qonşu ölkələrdə də milli valyutalar 100 faiz, bəzi hallarda ondan da çox dərəcədə devalvasiyaya uğrayıb. Belə olan halda Azərbaycanda istehsal olunan məhsullar öz rəqabət qabiliyyətliliyini itirirdi, bizim istehsalçılara çox böyük təzyiq göstərilirdi. Sadəcə olaraq, manatı əvvəlki səviyyədə saxlamaq qeyri-mümkün idi. Yəni, bu, qaçılmaz bir addım idi. Ancaq biz çalışacağıq ki, bu məzənnənin dəyişməsi ilə bağlı mənfi fəsadların aşağı salınması üçün daha da fəal iş görək. Bütün bunlara baxmayaraq, Azərbaycan iqtisadiyyatı artıb. Ümumi daxili məhsul 1 faizdən çox, sənaye istehsalı 2,4 faiz, qeyri-neft sənayesi isə 8,4 faiz artıb. Keçən il ölkə iqtisadiyyatına 20 milyard dollara yaxın sərmayə qoyulub ki, bunun yarısı xarici sərmayədir.

Keçən il bütün sosial proqramların icra edildiyini vurğulayan ölkə rəhbəri qeyd edib ki, insanlara daha da böyük məbləğdə ünvanlı dövlət sosial yardımı verilib. Bu gün 112 min ailə, təqribən 500 minə yaxın insan hər ay dövlətdən orta hesabla 152 manat yardım alır və il ərzində verilən bu məbləğ 7 faiz artıb. Keçən il altmışa yaxın tibb müəssisəsi tikilib-təmir edilib, 20-dən çox məktəb təmir edilib-tikilib və hazırda 23 məktəbdə təmir işləri aparılır. Uşaq bağçalarının tikintisi davam edir.

Dövlətimizin başçısı deyib ki, keçən il TANAP layihəsinin inşası başlanıb. Bu, ölkəmiz, region və ümumiyyətlə, Avropa üçün çox əhəmiyyətli, strateji əhəmiyyət daşıyan layihədir. Bu layihə bizə imkan verəcək ki, zəngin qaz resurslarımızı dünya bazarlarına çıxaraq. Avropa isə alternativ qaz mənbəyi əldə edəcək.

### Xalqla iqtidar arasında birlik möhkəmlənir

“2015-ci ildə ölkəmizin həyatında tarixi hadisə baş vermişdir. İlk dəfə olaraq Avropa Oyunları keçirilmişdir. Azərbaycan bu Oyunları yüksək səviyyədə keçirə bilmişdir. Baxmayaraq ki, Oyunların keçirilməsi üçün cəmi 2 il yarım vaxtımız var idi, biz bu Oyunları Yay Olimpiya Oyunları səviyyəsində keçirdik”, - deyən ölkə rəhbəri vurğulayıb ki, bu Oyunlar müstəqil ölkəmizin qüdrətini bir daha göstərdi. Bu Oyunlar göstərdi ki, biz ən mötəbər beynəlxalq tədbiri ən yüksək səviyyədə keçirə bilərik. Yay Olimpiya Oyunlarında Azərbaycan idmançıları 56 medal qazandılar ki, onlardan 21-i qızıl medaldır.

Prezident İlham Əliyev xatırladıb ki, 2015-ci ildə parlament seçkiləri keçirilib. Bütün beynəlxalq müşahidəçilər, o cümlədən Avropa Şurasının nümayəndələri, MDB ölkələrinin nümayəndələri və digər müşahidəçilər parlament seçkilərini birmənalı şəkildə yüksək qiymətləndiriblər ki, seçkilər ədalətli, şəffaf şəkildə və demokratik şəraitdə keçirilib. Azərbaycan xalqının iradəsi parlament seçkilərinin nəticələrində tam şəkildə ifadə olunub. Bütün çətinliklərə, beynəlxalq iqtisadi böhranlara, siyasi-hərbi böhranlara baxmayaraq, Azərbaycan inamla irəliyə gedəcək. Azərbaycanda xalqla iqtidar arasında birlik möhkəmlənir və bu amillər bizim uğurlu inkişafımızı şərtləndirir.

### Xarici sərmayəni daha çox cəlb etməliyik

Azərbaycan Prezidenti İlham Əliyev yekun nitqində deyib: “Ümumiyyətlə, ümumi daxili məhsulumuzun strukturu müsbətə doğru dəyişir, qeyri-neft sektorunun çəkisi artır. Bu, müsbət haldır. Neftdən asılılıq azalır. Ancaq biz bu asılılığı minimum səviyyəyə endirməliyik ki, gələcəkdə neftin qiymətindən asılı olmayaq. Vəzifə bundan ibarətdir. Hesab edirəm ki, biz düşünülmüş siyasət, gərgin iş nəticəsində buna nail ola biləcəyik”.

Dövlətimizin başçısı bildirib ki, bu il biz xarici investisiyaları Azərbaycana daha böyük həcmdə cəlb etməliyik. Azərbaycan xarici sərmayə üçün çox gözəl ölkədir. Düzdür, sərmayələr daha çox neft-qaz sektoruna qoyulur, eyni zamanda, son vaxtlar qeyri-neft sektoruna da xarici sərmayə qoyulması müşahidə olunur. Biz çalışmalıyıq ki, xarici sərmayəni ölkəmizə cəlb edək. Eyni zamanda, yerli sahibkarlar da Azərbaycan iqtisadiyyatına daha çox sərmayə qoymalıdırlar. İlk növbədə sərmayəni iqtisadiyyatın real sektoruna - istehsal sahələrinin yaradılmasına, kənd təsərrüfatına, sənayenin inkişafına və xidmət sektoruna yatırmalıdırlar.

*(Ardı 2-ci səhifədə)*

. . .     . . .     . . .

## IV Qlobal Bakı Forumu bu ilin martında keçiriləcək

**♦ Bu il martın 10-11-də Bakıda Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkil etdiyi IV Qlobal Bakı Forumu keçiriləcək. Dörd ildir təşkil edilən bu ənənəvi Forumda bir sıra ölkələrin dövlət və hökumət başçılarının, habelə tanınmış nüfuzlu siyasi xadimlərin iştirakı gözlənilir.**

Diasporla İş üzrə Dövlət Komitəsindən AZƏRTAC-a verilən məlumata görə, “Çoxqütblü dünyaya doğru” mövzusunda keçiriləcək Forumda 300-ə yaxın nümayəndənin iştirakı gözlənilir.

IV Qlobal Bakı Forumunda dünyada etnik, dini və siyasi zəmində baş verən münaqişələr, demokratiyanın inkişafı, təhsil, ekologiya, enerji təhlükəsizliyi sahəsindəki qlobal problemlər müzakirə ediləcək və bu problemlərin həlli yollarının tapılması istiqamətində fikir mübadiləsi aparılacaq.

Qeyd edək ki, I, II və III Qlobal Açıq Cəmiyyətlər Forumu 2013-cü, 2014-cü və 2015-ci illərdə Bakı şəhərində keçirilib. Bu toplantılara dünyanın bir sıra nüfuzlu siyasi və dövlət xadimləri qatılıblar.

## *İqtisadiyyat Nazirliyi:* Azərbaycanda un və çörək qonşu ölkələrdən ucuzdur

**♦ Məlumat verildiyi kimi, manatın məzənnəsinin dəyişməsi ilə əlaqədar əhalinin, xüsusilə aztəminatlı ailələrin sosial müdafiəsini gücləndirmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin tapşırığına əsasən, buğdanın idxalı və satışı, buğda ununun və çörəyin istehsalı və satışı yanvarın 15-dən etibarən əlavə dəyər vergisindən azad olunub. Bunun nəticəsi olaraq, hazırda 50 kiloqramlıq 1 kisə əla növ buğda ununun pərakəndə satış qiyməti ölkə ərazisində 23-24 manatadək enib.**

İqtisadiyyat Nazirliyindən AZƏRTAC-a bildiriblər ki, unun yeni qiymətləri qonşu ölkələrdəkindən xeyli aşağıdır. Müqayisə üçün: Gürcüstanda 50 kiloqramlıq 1 kisə əla növ buğda ununun pərakəndə satış qiyməti 31-32 manat, Türkiyədə 30-33 manat arasındadır. Çörəyin qiymətinə gəlincə isə, Azərbaycanda hazırda əla növ buğda unundan bişirilmiş 500 qramlıq çörəyin pərakəndə satış qiyməti 30 qəpik təşkil edir. Əla növ buğda unundan bişirilmiş çörəyin 500 qramının pərakəndə satış qiyməti Gürcüstanda 50-70 qəpik, Türkiyədə 1.10-1.20 manat, Rusiyada 60-80 qəpik arasında dəyişir.




Unudulmaz faciə və qəhrəmanlıq anı
3





Avadanlıqlara xidmət diqqət mərkəzindədir
4


## Neftin qiyməti 2017-ci ildə 60 dollara yüksələ bilər

**♦ “Capital Economics”in əmtəə mütəxəssisi Tomas Puq “Brent” neftinin bir barrelinin qiymətinin 2017-ci ildə 60 dollara qədər yüksələ biləcəyini deyib. Onun fikrincə, “Brent” nefti 2020-ci ilədək 70 dollar səviyyəsindən aşağıda qalacaq.**

AZƏRTAC xəbər verir ki, mərkəzi ofisi Londonda yerləşən müstəqil araşdırma və məsləhət şirkəti “Capital Economics”in əmtəə mütəxəssisi T.Pug Çinin iqtisadiyyatındakı yavaşlamanın qlobal neft tələbinə mənfi təsir göstərdiyini bildirib. O, Çinin iqtisadiyyatının bu il stabilləşməsini gözlədiyini və bunun da neftin qiymətlərinin bahalaşmasına təsir edəcəyini vurğulayıb.

Ucuzlaşan neft qiymətləri ilə əlaqədar ABŞ-dakı istehsalçıların da çətin vəziyyətdə olduğunu xatırladan T.Puq bu ölkədə neft sərmayələrinin və qazma quyularının sayının getdikcə azaldığını, bunun yerli neft hasilatında kəskin azalmaya səbəb olduğunu deyib.

Qeyd edək ki, aşağı düşən qiymətlər xam neft ixracatçısı ölkələrin iqtisadiyyatlarına mənfi təsir etməkdə davam edir. Ucuzlaşan qiymətlərdən ən çox təsirlənən ölkələr Rusiya, Kanada, Norveç, Venesuela və Səudiyyə Ərəbistanıdır.

## Azərbaycan XİN İrana qarşı sanksiyaların ləğvini alqışlayıb

**♦ Azərbaycan Xarici İşlər Nazirliyi"altılıq" ölkələri ilə İran arasında Avropa İttifaqının iştirakı ilə 14 iyul 2015-ci ildə imzalanmış Birgə Hərtərəfli Fəaliyyət Planının həyata keçirilməsini alqışlayır.**

APA-nın məlumatına görə, bu barədə Azərbaycan XİN-in bəyanatında deyilir. Bəyanatda deyilir ki, Azərbaycan bu irəliləyişin əldə olunmasında bütün tərəflərin nümayiş etdirdikləri qətiyyət və əzmi təqdir edir: “Biz həmçinin, bu nailiyyət münasibətilə dost və qonşu İran xalqını təbrik edir və bu müsbət prosesin Azərbaycan Respublikası və İran İslam Respublikası arasında qarşılıqlı faydalı tərəfdaşlığın daha da inkişafına əlavə təkan verəcəyinə əminliyimizi bildiririk”.

Xatırladaq ki, yanvarın 16-dan etibarən 14 iyul 2015-ci ildə imzalanmış Birgə Hərtərəfli Fəaliyyət Planının həyata keçirilməsinə başlanıb və ABŞ və Avropa İttifaqı İran üzərindən sanksiyaları götürüb.

# *Prezident İlham Əliyev:* "Bütün çətinliklərə, beynəlxalq iqtisadi böhranlara, siyasi-hərbi böhranlara baxmayaraq, Azərbaycan inamla irəliyə gedəcək"

*(Əvvəli 1-ci səhifədə)*



**Maliyyə nəzarətini gücləndirməliyik**

"Biz ölkəmizin valyuta ehtiyatlarını qoruyuruq və qorumalıyıq. Əvvəlki illərdə Neft Fondundan dövlət büdcəsinə böyük məbləğdə transfert olunurdu. Bunun da təbii səbəbləri var idi. Biz çalışırdıq ki, əsas infrastruktur layihələrini maksimum tez bir zamanda icra edək və buna nail ola bilmişik. Bu gün deyə bilərəm ki, Azərbaycanda əsas infrastruktur layihələri icra edilibdir. Elektrik enerjisi ilə bağlı generasiya güclərimiz kifayət qədər böyükdür, qazlaşdırma uğurla aparılır, içməli su layihələri, yolların tikintisi. Yəni, Dövlət Neft Fondunun transfertlərinin məqsədi bundan ibarət idi ki, infrastruktur, biznesin inkişafı üçün daha yaxşı şərait yaradılsın və biz buna nail ola bilmişik", - deyən ölkə rəhbəri qeyd edib ki, indiki şəraitdə biz Neft Fondunun vəsaitini qorumalıyıq. Əvvəlki illərdə apardığımız siyasət davam etdirilə bilməz. Neft Fondundan dövlət büdcəsinə transfertlər bu il azalır və biz gələcəkdə də xüsusilə hər bir layihəyə, onun əhəmiyyətinə baxmalıyıq və məhz ondan sonra qərar qəbul edilməlidir.

Dövlətimizin başçısı deyib ki, vergi bazası genişləndirilməlidir. Gömrük rəsmiləşdirilməsi və bütün idxal-ixrac əməliyyatları tam şəffaf aparılmalıdır. Maliyyə nəzarəti daha da gücləndirilməlidir. Xüsusilə Hesablama Palatasının işi daha da səmərəli şəkildə təşkil edilməlidir. Dövlət qurumlarının, dövlət şirkətlərinin xərclərinə çox ciddi nəzarət olmalıdır.

"Deyə bilərəm ki, bütövlükdə son illər ərzində apardığımız islahatlar öz nəticəsini verməkdədir. Beynəlxalq iqtisadi və maliyyə qurumları Azərbaycanda iqtisadi sahədə aparılan siyasəti yüksək qiymətləndirirlər. Dünyanın ən böyük və mötəbər qurumlarından biri olan Davos Dünya İqtisadi Forumu Azərbaycanı iqtisadiyyatın rəqabət qabiliyyətliliyinə görə 40-cı yerə layiq görüb. Bu, doğrudan da böyük nailiyyətdir", - deyən ölkə rəhbəri qeyd edib ki, aparıcı reytinq agentlikləri 2015-ci ildə bizim müsbət reytinqlərimizi təsdiq ediblər.

**İstehlak qiymətlərinə ciddi nəzarət olunmalıdır**

Dövlətimizin başçısı deyib ki, biznes mühitinin yaxşılaşdırılması istiqamətində əlavə tədbirlər görülməlidir. Ötən il bu istiqamətdə çox ciddi addımlar atılıb, bürokratik əngəllər aradan götürülür. Bu il də bu istiqamətdə daha da ciddi işlər aparılmalıdır və biznes ictimaiyyətinin təklifləri də nəzərə alınmalıdır. Sahibkarlara güzəştli kreditlərin verilməsi təmin edilməlidir. Keçən il güzəştli şərtlərlə təxminən 250 milyon manat məbləğində kreditlər verilib. Bu siyasət bu il də davam etdirilməlidir.

"İstehlak qiymətlərinə çox ciddi nəzarət etmək lazımdır. Manatın məzənnəsinin dəyişməsi ilə bağlı bəzi işbazlar qiymətləri süni şəkildə qaldırmaq istəyirlər. Əlbəttə ki, biz ərzaq məhsulları ilə bağlı müəyyən dərəcədə idxaldan asılıyıq. Hələ ki, özümüzü tam 100 faiz təmin edə bilməmişik. Ancaq o məhsullar ki, Azərbaycanda istehsal olunur, orada qiymət artımı ümumiyyətlə mümkün deyil, olmamalıdır. Ümumiyyətlə, mən bilirəm, məlumat da gəlir ki, natəmiz insanlar, işbazlar bax bu məzənnə məsələsindən sui-istifadə etmək istəyirlər. Buna son qoyulmalıdır. Süni bahalaşmaya son qoyulmalıdır və burada çox ciddi cəza tədbirləri görülməlidir", - deyən dövlətimizin başçısı qeyd edib biz sadəcə olaraq cərimələrlə kifayətlənməməliyik. Bu vəziyyətdən öz şəxsi maraqları üçün istifadə etmək istəyənlərə qarşı çox ciddi cəza tədbirləri görülməlidir.

Prezident İlham Əliyev deyib ki, bu il pensiya və əməkhaqqının qaldırılması nəzərdə tutulmalıdır. Hökumət bu məsələlərə baxmalı və təkliflər verməlidir. Əlbəttə ki, dövlət büdcəsinə də düzəlişlər ediləcək, dürüstləşmə aparılacaq. Orada həm sosial təminat məsələləri və investisiyayönümlü məsələlər öz həllini tapmalıdır. Biz bu il bütün sosial proqramları tam icra edəcəyik. O cümlədən məcburi köçkünlərin yaşayış problemlərinin həlli istiqamətində böyük vəsait nəzərdə tutulur. Ötən il 15 min kökçün, 2014-cü ildə isə 20 min köçkün yeni evlərə köçüb və bu siyasət davam etdiriləcək.

**"Kənd təsərrüfatı ili" uğurlu olub**

Keçən il "Kənd təsərrüfatı ili" olduğunu xatırladan dövlətimizin başçısı deyib ki, ötən il kənd təsərrüfatımız 6,6 faiz artıb. Biz ixrac qabiliyyətimizi artırmalıyıq. Çünki gələcəkdə bizim neft və qazdan başqa, əsas ixrac məhsullarımız kənd təsərrüfatı məhsullarıdır. Bizim kənd təsərrüfatı məhsulları üçün əsas bazarımız Rusiyadır. Rusiyada bizim məhsullara indi daha çox tələbat var. Biz bu tələbatı təmin etməliyik və Rusiya bazarına daha da böyük məhsulla çıxmalıyıq. Yaxın vaxtlarda biz ərzaq məhsullarımızı Qazaxıstana da ixrac etməyə başlayacağıq. Bizim üçün isə əsas məsələ ənənəvi bazarlara daha böyük həcmlə çıxmaq və yeni bazarlara öz məhsullarımızı təqdim etməkdir.

"Dövlət İnvestisiya Proqramında infrastruktur layihələri öz əksini tapacaq. Onların içində içməli su layihələrini xüsusilə qeyd etmək istərdim. Çünki indi Azərbaycanda qazlaşdırma təxminən 90 faizə çatmışdır. Çox gözəl göstəricidir. "Azərişıq" indi bölgələrdə fəal iş aparır. Mən də bölgələrdə olarkən, vəziyyətlə maraqlanarkən yerli nümayəndələr, vətəndaşlar bildirirlər ki, son vaxtlar bölgələrdə elektrik enerjisi ilə təchizat daha da yaxşılaşdı. Elə etməliyik ki, bölgələrdə elektrik enerjisi ilə təchizat Bakıdakı kimi olsun. Ona görə, kifayət qədər generasiya güclərimiz yaradılıb. İndi əsas məsələ ondan ibarətdir ki, biz insanlara bu elektrik enerjisini fasiləsiz çatdıra bilək", - deyə Prezident İlham Əliyev bəyan edib.

**Nəqliyyat, turizm və ekologiya diqqət mərkəzində**

"Biz turizm sektorunun inkişafı üçün yerli və xarici sərmayəni cəlb etməliyik. Dövlət artıq kifayət qədər böyük işlər görübdür. Biz dövlət hesabına "Şahdağ" kurort zonasını yaratmışıq. Düzdür, sonra özəl qurumlar da orada otellər, mehmanxanalar tikiblər. Ancaq bütün infrastruktur və birinci otel dövlət hesabına tikilib. Nəyə görə? İnsanlara şərait yaratmaq, o bölgəni – şimal bölgəsini inkişaf etdirmək, iş yerləri yaratmaq, xarici turistləri cəlb etmək və gələcəkdə gəlir qazanmaq üçün. Budur məqsəd. Burada həm sosial, həm regional, həm də iqtisadi siyasət birləşir. Ona görə, turizm üçün bütün başqa məqbul zonalarda turizm geniş inkişaf etməlidir", - deyə ölkə rəhbəri bəyan edib.

"Nəqliyyat dəhlizlərinə gəldikdə, bu il Bakı-Astara dəmir yolunun qalan hissəsi tikilməlidir. Orada qalan hissə 8 kilometrdir. Bu il bu, tikilməlidir. İran ilə artıq danışıqlar aparılıb və bu yolun əhəmiyyəti çox böyükdür. Bu, Azərbaycanı Şimal-Cənub dəhlizinin çox önəmli partnyoruna çevirəcək. Beləliklə, Şərq-Qərb və Şimal-Cənub - bütün yollar Azərbaycandan keçəcək. Bu, bizim siyasi, iqtisadi maraqlarımızı təmin edəcək. Ona görə, bir daha demək istəyirəm, ən azı bu il o qalan 8 kilometr yol tezliklə tikilməlidir və burada bütün müvafiq qurumlarla koordinasiya işləri də aparılmalıdır", - deyən dövlətimizin başçısı qeyd edib ki, şəhər nəqliyyatı inteqrasiya edilmiş vahid bir sistem olmalıdır. Metro, avtobus, digər vasitələr vahid sistem şəbəkəsinə qoşulmalıdır. Müvafiq göstərişlər verilib və yeni qurum yaradılıb. Tezliklə bu qurumun işi təşkil edilməlidir ki, şəhər nəqliyyatı Bakıda ən yüksək standartlara cavab versin.

Ekoloji tədbirlərin daim aparıldığını vurğulayan ölkə rəhbəri qeyd edib ki, keçən il 4 milyondan çox ağac əkilib. Bakıda və Abşeron yarımadasında ağacəkmə daimi proses olmalıdır, çirklənmiş yerlər təmizlənməlidir. Böyükşor gölünün təmizlənməsinin birinci mərhələsi keçən il həyata keçirilib. Bu gölün təmizlənməsinin ikinci hissəsi bu il icra edilməlidir. Həmçinin Zığ gölünün təmizlənməsi layihəsi də icra edilməlidir.

Prezident İlham Əliyev deyib ki, bu il Masallı və Qəbələdə "ASAN xidmət" mərkəzi açılmalıdır. Beləliklə, "ASAN xidmət" mərkəzlərinin sayı 11-ə çatacaq. "ASAN xidmət" Azərbaycan brendidir. İki il ərzində "ASAN xidmət"ə 7 milyondan çox müraciət olub. "ASAN xidmət" ictimai xidmətlər, korrupsiyaya qarşı mübarizə sahəsində, doğrudan da, inqilabdır. Gələcəkdə "ASAN xidmət"də göstərilən xidmətlərin sayı daha da artmalıdır. Bizdə harada hələ ki şəffaflıq təmin edilmir, bax o sahələr də "ASAN xidmət"də öz həllini tapacaq.

**2016 - "Multikulturalizm ili"**

Dövlətimizin başçısı deyib ki, bu il Bakıda mötəbər beynəlxalq tədbir - Sivilizasiyalar Alyansının Qlobal Forumu keçiriləcək. Bu böyük beynəlxalq tədbirin Bakıda keçirilməsi həm bizə verilən böyük qiymətdir, həm də bizim üçün böyük şərəfdir.

Prezident İlham Əliyev dərin məzmunlu nitqini bu sözlərlə yekunlaşdırıb: "Bu Qlobal Forumun Azərbaycanda keçirilməsini, ümumiyyətlə, bu sahəyə verdiyimiz diqqəti və əldə etdiyimiz nailiyyətləri nəzərə alaraq mən bu ili Azərbaycanda "Multikulturalizm ili" elan edirəm. Azərbaycan multikulturalizmlə bağlı çox böyük işlər görüb. Azərbaycan nümunəsi göstərir ki, multikulturalizm yaşayır. Baxmayaraq bəzi siyasətçilər deyirlər ki, multikulturalizm iflasa uğrayıb. Bəlkə haradasa iflasa uğrayıb. Amma Azərbaycanda yaşayır və bu meyillər, bu ideyalar güclənir, ictimaiyyətdən də daha çox dəstək alır. Biz bu yolla gedəcəyik. Beləliklə, bu il Azərbaycanda "Multikulturalizm ili" elan olunur.

2016-cı ildə biz fəal işləməliyik. Dediyim bütün vəzifələr icra edilməlidir. Vəzifələrin icrası üçün mexanizmlər qısa bir zamanda işlənib mənə təqdim edilməlidir. Müvafiq qərarlar qəbul ediləcək ki, 2016-cı ili də biz uğurla başa vuraq".

## Ağsaqqallar Şurası ötən ilin yekunlarını müzakirə edib

♦ **Yanvarın 18-də Azərbaycan Ağsaqqallar Şurasının 2015-ci ilin yekunlarına həsr olunmuş iclası keçirilib.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Ağsaqqallar Şurasının sədri Fəttah Heydərov Şuranın 2015-ci ildəki fəaliyyətindən və qarşıda duran vəzifələrdən danışıb. O, ağsaqqalların, yaşlı və ahıl insanların ölkənin ictimai, mədəni həyatında, eləcə də dövlət idarəetmə sistemindəki fəal rolundan söz açıb.

Fəttah Heydərov dünyada hökm sürən iqtisadi böhran şəraitində ölkəmizdə əldə olunan uğurlardan, sosial, iqtisadi, mədəni, ictimai həyatın bütün sahələrində qazanılan nailiyyətlərdən bəhs edib. Ölkəmizdə həyata keçirilən dinamik inkişaf prosesinə ağsaqqalların da böyük töhfələr verdiyini vurğulayıb.

Şuranın sədr müavini Bayram Yusifov qurumun ötən il gördüyü işlər barədə hesabatla çıxış edib.

Tədbirdə çıxış edən Prezident Administrasiyasının ictimai-siyasi məsələlər şöbəsinin müdir müavini Ərəstun Mehdiyev deyib ki, dünyada gedən qlobal proseslər Azərbaycandan da yan keçmir. Çünki Azərbaycan dünyanın tərkib hissəsidir. Təbii ki, beynəlxalq aləmdə baş verən böhranın təsiri Azərbaycanda da hiss olunur.

Şöbə müdirinin müavini bildirib ki, Azərbaycan dövləti ötən əsrin 90-cı illərində olduğundan qat-qat güclüdür. Xalq ilə iqtidar arasında güclü birlik var. Bu birlik çətinliklərin öhdəsindən gəlməyə imkan verəcək. Böhran təzahürlərinin aradan qaldırılması üçün dövlət tədbirlər görür. Sadəcə, bizi narahat edən məsələ odur ki, Azərbaycandakı inkişafı və sabitliyi gözü götürməyən bəzi xarici dairələr aranı qarışdırmaq üçün dəridən-qabıqdan çıxırlar. Azərbaycandakı "beşinci kolon" da onların dəyirmanına su tökməklə xalqı çaşdırmaq, hüquqazidd əməllərə yol verməklə qarışıqlıq salmaq istəyir, yaranmış çətinliklərdən istifadə etməyə çalışırlar. Ziyalılar, ağsaqqallar bu məqamda öz kəsərli sözlərini deməlidirlər. Ərəstun Mehdiyev xarici dairələrin öz məkrli məqsədlərinə çatmalarına imkan verilməyəcəyini vurğulayıb.

## Prezident İlham Əliyevin yanında iqtisadi və sosial məsələlərin həlli ilə bağlı müşavirə keçirilib

♦ **Yanvarın 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yanında iqtisadi və sosial məsələlərin həlli ilə bağlı müşavirə keçirilib.**

Prezident İlham Əliyev bildirdi ki, 2015-ci ildə dünyada neftin qiymətinin kəskin düşməsi nəticəsində neft ixrac edən ölkələr çətinliklərlə üzləşiblər və bu proses indi də davam edir. Son bir ildə neftin qiymətinin 4 dəfə düşdüyünü, bunun isə gəlirlərin azalmasına təsir etdiyini deyən dövlət başçısı hazırda Azərbaycanın vəziyyətdən çıxmaq üçün addımlar atdığını, digər neft ölkələri ilə müqayisədə ən az itki ilə üzləşdiyimizi diqqətə çatdırdı. Nazirlər Kabinetinin ötən iclasında verilən tapşırıqlar yerinə yetirildiyi təqdirdə Azərbaycanın çətinliklərdən asanlıqla çıxacağını deyən Prezident İlham Əliyev ölkədə islahatların dərinləşməsinin vacibliyini vurğuladı, bununla bağlı səslənən təkliflərin artıq icra olunmağa başladığını dedi. İlk növbədə insanların sosial müdafiəsi ilə bağlı məsələlərin diqqət mərkəzində saxlanılacağını deyən dövlətimizin başçısı son illərdə ölkədə həyata keçirilən işlərin insanların rifah halının daha da yaxşılaşdırılmasına yönəldiyini bildirdi. Bu yaxınlarda pensiya və əmək haqlarının 10 faiz qaldırılmasının bu istiqamətdə atılan önəmli addım olduğunu dedi.

Prezident İlham Əliyev çıxışında süni bahalaşmaya da münasibət bildirdi, bu problemə qarşı ciddi mübarizə aparılmasının əhəmiyyətini vurğuladı. İşbazların qiymətləri süni şəkildə bahalaşdırmağa çalışdığını deyən dövlətimizin başçısı görülən tədbirlər nəticəsində çörəyin və unun qiymətinin əhəmiyyətli dərəcədə aşağı düşdüyünü bildirdi.

Struktur islahatları ilə bağlı artıq müəyyən addımların atıldığını deyən Prezident İlham Əliyev bildirdi ki, bu tədbirlər daimi olmalı, bir-birini təkrarlayan və lazımsız dövlət qurumları ya birləşdirilməli, ya da ləğv olunmalıdır. Valyuta bazarının tənzimlənməsi ilə bağlı müvafiq göstərişlərin verildiyini, təkliflərin hazırlandığını deyən dövlətimizin başçısı bu sahədə qanunvericilik bazasının möhkəmləndirilməsinin əhəmiyyətinə toxundu, Milli Məclisin növbədənkənar sessiyasında məsələyə baxılacağını dedi. Bundan əlavə, Prezident İlham Əliyev beynəlxalq ekspertlərin iştirakı ilə geniş özəlləşdirmə proqramının hazırlanması, bu işə xarici və yerli investorların cəlb olunması, iqtisadi canlanmaya nail olmaq üçün biznes mühitinin yaxşılaşdırılması ilə bağlı tapşırıqlarını verdi.

Dövlətimizin başçısı manatın etimadının bərpası ilə bağlı ciddi tədbirlərin görülməsinin əhəmiyyətinə də toxundu, hazırda ölkədə müşahidə olunan dollarizasiya prosesinin heç bir iqtisadi əhəmiyyətinin olmadığını dedi. Manatın məzənnəsinin sabit saxlanmasının təkcə hökumətdən asılı olmadığını deyən dövlətimizin başçısı bank sektorunun tənzimlənməsi ilə bağlı təkliflərə baxıldığını, problemli bankların sağlamlaşdırılması prosesinin aparılması, dövlət istiqrazlarının buraxılması, əmanətlərin sığortalanması ilə bağlı əlavə tədbirlərin görülməsinin vacibliyini bildirdi, bu kimi tədbirlərin milli valyutaya olan inamı artıracağını dedi.

Prezident İlham Əliyev bildirdi ki, ölkəmizin xarici borcunun çox aşağı səviyyədə olması və mövcud vəziyyət nəzərə alınaraq xarici maliyyə bazarlarından lazımi qədər maliyyə resursları Azərbaycan bazarına cəlb edilə bilər. Qeyri-neft sektorunun inkişafının indiki vəziyyətdə prioritet olmasının vacibliyini bildirən dövlətimizin başçısı Sahibkarlığa Kömək Milli Fondunun dəstəyi ilə bu il 250 milyon manat güzəştli kreditlərin veriləcəyini, sahibkarların öz maliyyə resurslarını da nəzərə alaraq o zaman regionlara qoyulan investisiyanın həcminin təxminən 1 milyard manat olacağını bildirdi.

Prezident İlham Əliyev çıxışında daha bir vacib məsələyə toxundu, iş adamlarına böyük tikinti layihələrini icra etmək üçün şəraitin yaradılması, bu sahədə mövcud olan əsassız tələblərin, bürokratiya və korrupsiya hallarının aradan qaldırılması ilə bağlı ciddi tapşırıqlar verdi. Bununla yanaşı, dövlətimizin başçısı ipoteka bazarının səmərəliliyinin artırılması, bu yolla inşa olunacaq binaların tikintisinin sürətləndirilməsi ilə bağlı təkliflərin hazırlanmasını tapşırdı.

Son 10 ildə Azərbaycanın dünyada ən sürətlə inkişaf edən ölkə olduğunu deyən Prezident İlham Əliyev bunu bütün beynəlxalq və maliyyə qurumlarının təsdiq etdiyini dedi, bu il ərzində Azərbaycanda iqtisadi inkişafla bağlı heç bir problemin olmayacağına əminliyini ifadə etdi.

Hökumət üzvləri də müzakirələrdə çıxış etdilər.

SOSİAL

## 1 milyon 223 min pensiyaçının əmək pensiyasının baza hissəsi artırılacaq

♦ **Prezident İlham Əliyevin imzaladığı "Əmək pensiyalarının baza hissəsinin artırılması haqqında" 16 yanvar 2016-ci il tarixli Sərəncamı ilə yaşa görə əmək pensiyasının baza hissəsinin məbləği 2016-cı il fevralın 1-dən 10% artırılaraq 110 manat müəyyən edilib. Sərəncamın icrası ilə bağlı Dövlət Sosial Müdafiə Fondu (DSMF) tərəfindən Azərbaycanın Milli Qəhrəmanlarının və şəhidlərin ailə üzvlərinin, əlillərin və digər şəxslərin əmək pensiyalarının baza hissəsinə əlavələr də daxil olmaqla bütün növ əmək pensiyaları üzrə aylıq pensiya məbləğlərinin artırılaraq yenidən hesablanması təmin ediləcək.**



"APA-Economics"in xəbərinə görə, bu barədə DSMF sədri Elman Mehdiyev dünən keçirdiyi mətbuat konfransında deyib.

E. Mehdiyev Azərbaycanda 1 yanvar 2016-cı il tarixinə 1 milyon 296 min pensiyaçının olduğunu bildirib. Fond sədri qeyd edib ki, ölkə başçısının əmək pensiyalarının baza hissəsinin artırılmasına dair sərəncamı təxminən 1 milyon 223 min pensiyaçıya şamil olunacaq: "Bu artımdan yararlanmayan qulluq stajına görə əmək pensiyasına əlavələr alanlar, yəni dövlət qulluqçuları, hərbi qulluqçular və digər bu kateqoriyaya aid pensiyaçıların sayı 73 min nəfərdir. Onların pensiyaları isə "Əmək pensiyaları haqqında" Qanuna uyğun olaraq fərqli qaydada artırılır".

DSMF sədri deyib ki, pensiyanın baza hissəsini 100% alanların (1 milyon 169 min nəfər) pensiyasının artımı 10 manat, bəzi kateqoriyaya aid olan pensiyaçılarda isə daha çox olacaq: "Belə ki, pensiyanın baza hissəsini 120 faiz həcmində alanlar ((I qrup gözdən əlillər istisna olmaqla) 17 min nəfər)) üzrə artım 13 manat, pensiyanın baza hissəsini 200 faiz həcmində alanlar üzrə ((I qrup gözdən əlillər) 8700 nəfər)) isə 21 manat təşkil edəcək. Milli qəhrəmanların ailə üzvlərinin pensiyasının baza hissəsi 20 manat artırılaraq 220 manata, şəhid ailəsi üzvlərinin pensiyasının baza hissəsi isə 18 manat 50 qəpik artırılaraq 203 manat 50 qəpiyə çatacaqdır. Döyüşən ordunun tərkibində xidmət etmiş müharibə iştirakçılarının (Böyük Vətən müharibəsi iştirakçıları istisna olmaqla), habelə döyüş əməliyyatı aparılan ölkədə hərbi xidmət borcunu yerinə yetirmiş hərbi qulluqçuların pensiyasının baza hissəsi 11 manat artacaqdır".

Onun sözlərinə görə, Böyük Vətən Müharibəsi (BVM) iştirakçılarının pensiyasının baza hissəsi 19 manat, I qrup BVM əlillərinin 25 manat, II qrup BVM əlillərinin 21 manat, III qrup BVM əlillərinin isə 19 manat artırılacaq.

E. Mehdiyev qeyd edib ki, əmək pensiyalarının baza hissəsinin artımının maliyyələşdirilməsi üçün hər hansı bir problem yoxdur və bu məqsədlərə ilin sonuna kimi təxminən 140 milyon manat əlavə vəsait yönəldiləcək.

## Azərbaycanın birinci xanımının təşəbbüsü ilə Heydər Əliyev Fondu Zaur Rəşidovun əməliyyat xərcini ödəyəcək

♦ **Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu Almaniyada təcili əməliyyata ehtiyacı olan Zaur Rəşidovun müalicəsi ilə bağlı bütün xərcləri öz üzərinə götürüb. Bu barədə AZƏRTAC-a Fonddan bildiriblər.**

Bununla bağlı Zaurun bacısı Dinarə Zəki ilə əlaqə saxladıq. Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevaya xeyirxah təşəbbüsünə görə təşəkkürünü bildirən D.Zəki Zaurun vəziyyətinin hazırda kritik olduğunu dedi. O, qardaşının müalicəsi, tam sağalması üçün təcili və çətin əməliyyata ehtiyac olduğunu bildirdi.

Otuz yaşlı Zaura "osteoblastoma" diaqnozu qoyulub. O, 2006-cı ildən bəri 5 əməliyyat keçirib, lakin xəstəlikdən xilas ola bilməyib. Sosial şəbəkələrdə onun müalicə xərclərinin ödənilməsi üçün vəsait toplanması məqsədilə qrup da yaradılmışdı.

## Ötən il əhalinin gəlirləri 5,7 faiz artıb

♦ **2015-ci ildə Azərbaycan əhalisinin gəlirləri əvvəlki illə müqayisədə nominal ifadədə 5,7 faiz artaraq 41,7 milyard manata çatıb.**

Dövlət Statistika Komitəsindən AZƏRTAC-a bildiriblər ki, gəlirlərin əhalinin hər nəferinə düşən həcmi isə orta hesabla 4380,1 manat və ya ayda 365 manat təşkil edərək 4,5 faiz artıb. Bu dövrdə gəlirlərin 72,1 faizi son istehlak xərclərinə, 9,1 faizi vergilərin, sığorta və üzvlük haqlarının, 2,9 faizi kreditlər üzrə faizlərin ödənilməsinə sərf edilib, 15,9 faizi isə yığıma yönəldilib.

Bütün icbari və könüllü haqlar ödənildikdən sonra əhalinin sərəncamında 37,9 milyard manat və ya əvvəlki ilin eyni dövründəkindən 5,6 faiz çox vəsait qalıb.

DİPLOMATİYA

## Azərbaycan torpaqlarının işğalına laqeyd münasibət Ermənistanı arxayın salır

♦ **Azərbaycanın ATƏT yanında daimi nümayəndəliyi ATƏT-ə yeni sədrin fəaliyyətə başlaması ilə əlaqədar bəyanat yayıb.**



Əvvəlcə bəyanatda ötən günlərdə İstanbulda törədilmiş və Almaniya vətəndaşlarının da həlak olduqları dəhşətli terror aktına görə Türkiyə və Almaniyaya başsağlığı verilir.

Bəyanatda Almaniyanın ATƏT-də sədrliyi təşkilatın dərin böhran dövründə öz üzərinə götürdüyü qeyd edilir. Bildirilir ki, ATƏT-ə üzv ölkələrin ərazi bütövlüyü, suverenliyi və beynəlxalq hüquqla tanınmış sərhədlərinin pozulması cəhdləri, ikili standartlar və Helsinki Yekun Aktının prinsiplərinin selektiv tətbiqi, ATƏT-in hərtərəfli təhlükəsizlik konsepsiyasının üç əsas ölçüsünə xas olan balansın pozulması bu böhranın kökündə dayanan səbəblərdir.

Qeyd edilir ki, mövcud böhranların aradan qaldırılması üçün daha çox dialoq, qarşılıqlı anlaşma və konstruktiv yanaşmaya ehtiyac var. Bu baxımdan ATƏT öz geniş təhlükəsizlik konsepsiyası və iştirakına görə unikal platformadır. Azərbaycan Almaniyanın ATƏT-ə sədrliyi dövründə ATƏT məkanında dialoqun yenilənməsi, etimadın yenidən qurulması və təhlükəsizliyin bərpası istiqamətindəki niyyətlərini alqışlayır və əməkdaşlığa hazır olduğunu bəyan edir.

Bəyanatda Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə də toxunulur. Qeyd edilir ki, Ermənistanın Azərbaycan torpaqlarını işğal altında saxlaması danışıqlarda həlledici irəliləyişin əldə edilməsi üçün əsas maneədir. Buna əsas səbəb isə BMT Təhlükəsizlik Şurasının qətnamələrinə uyğun olaraq öz qoşunlarını işğal edilmiş ərazilərdən tam və qeyd-şərtsiz çıxarmalı olan Ermənistana heç bir təzyiqin göstərilməməsidir. Ermənistan qoşunlarının işğal olunmuş ərazilərdə qeyri-qanuni mövcudluğu ilə bağlı nümayiş etdirilən barışıq mövqeyi Minsk qrupu həmsədrlərinin sülh prosesini monopoliyaya alması cəhdləri ilə müşayiət olunur və münaqişənin siyasi yolla həllinə yönələn xarici yardımların qarşısını alır. Nəticədə ATƏT-in və onun Minsk qrupunun münaqişənin həllində rolu həmsədrlərin formal dəstəklənməsi ilə məhdudlaşır, onun iştirakını heçə endirir. Azərbaycan ərazilərinin işğalına laqeyd münasibət Ermənistanı arxayın salır, lakin bu, birgə dəyərlərimiz və qəbul olunmuş prinsiplərimiz üçün zərərlidir.

Bəyanatda ATƏT-in suverenliyi və ərazi bütövlüyü pozulmuş üzv dövlətlərlə həmrəylik nümayiş etdirəcəyinə inam ifadə olunur: "Biz hələ də böyük ümid bəsləyirik ki, ATƏT bir milyon azərbaycanlı qaçqın və məcburi köçkünün təməl haqlarının pozulmasının davam etməsindən narahatlıq nümayiş etdirəcək. Biz münaqişə zonasında vəziyyətin pisləşməsini müntəzəm olaraq diqqətə çatdırmalı və sülh prosesində tərəqqiyə maneələri üzə çıxarmalıyıq".

Bununla bağlı Azərbaycan Almaniya sədrliyini Vyanada ATƏT-in Minsk qrupunun rolunu yenidən canlandırmağa və Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı məsələni ATƏT gündəliyində ən yüksək pilləyə qaldırmağa çağırır.

ÜMUMXALQ HÜZN GÜNÜ

# UNUDULMAZ FACİƏ VƏ QƏHRƏMANLIQ ANI

**♦ ...O müdhiş gecədən, qanlı şənbədən bizi 26 illik bir zaman məsafəsi ayırır. Amma baş vermiş faciənin ağrı-acısını, törədilmiş cinayətin amansızlığını nə vaxtın axarı unutdura bilir, nə də tarixin gedişi... 1990-cı ilin 20 yanvarı xalqımızın yaddaş salnaməsinə əbədi olaraq hüzn və qürur anı kimi həkk olunmuşdur. Hüznümüz – həmin gün həyatını itirmiş həmvətənlərimizin nakam taleyi, günahsız insanların vəhşicəsinə qətlə yetirilməsi ilə bağlıdırsa, qururumuz azadlıqsevər xalqımızın mübarizə ruhunun ən zəhmli hərbi güc, ən qorxunc döyüş silahları qarşısında belə əyilməzliyindən qaynaqlanır.**

Keçmiş SSRİ dövlətinin süqutu siyasi hakimiyyətin şəriksiz sahibi olan Kommunist Partiyasına M.Qorbaçov kimi avantürist və karyerist bir adamın gətirilməsi ilə başlandı. Onun "yenidənqurma" adı ilə həyata keçirdiyi siyasət sovet cəmiyyətinin uzun illər ərzində möhkəmlənmiş sütunlarını elə sarsıtdı ki, xalqların "könüllü ittifaqı" çox sürətlə çat verdi. Bu ittifaqın üzvü olmasına baxmayaraq, daim öz qonşularının torpaqlarına göz dikən namərd ermənilər belə bir vaxtda öz mənfur niyyətlərini gerçəkləşdirmək, Qarabağı inzibati cəhətdən Azərbaycandan ayırmaq fürsəti qazandıqlarını düşündülər. Onların bu məsələni aktiallaşdırmaq cəhdlərinə sovet hökumətinin məsuliyyətsiz münasibəti xalqımızı real təhlükə qarşısında səfərbər olmağa, öz mənafeyini qorumağa məcbur edirdi. Ulu Öndər Heydər Əliyevin 1970-80-ci illərdə respublikamızda apardığı siyasət nəticəsində milli özünüdərk prosesinin başlanması, xalqımızın milli mənlik şüurunun yetkinləşməsi xəyanatkar qonşuların düşmənçilik iddialarına qarşı mübarizə aparmaq üçün yaxşı bir zəmin oldu.

Belə bir fakt danılmazdır ki, erməni millətçilərinin tarixən xəyallarında qurduqları "Böyük Ermənistan" planını yenidən işə salmaq cəhdləri Azərbaycanın dahi oğlu Heydər Əliyevin siyasi hakimiyyətdən uzaqlaşdırılmasından sonra rəvac tapa bilmişdi. SSRİ kimi çoxmillətli, nəhəng bir dövlətdə bir türk oğlunun qazandığı ümumxalq məhəbbəti, onun ağlı, zəkası və qətiyyəti özünü sərsəm çıxışları və mənfur əməlləri ilə ölkədə gözdən salmış, erməni mafiyasının təsiri altına düşmüş M.Qorbaçovda kəskin həsəd və paxıllıq hissi ilə yanaşı, həm də qorxu yaradırdı. O zaman aparıcı xarici dövlətlərin beyin mərkəzləri apardıqları təhlillər əsasında belə qənaətə gəlirdilər ki, Heydər Əliyev SSRİ-ni iflasdan xilas edib onu qoruya biləcək yeganə siyasi liderdir.

Ulu Öndərimizin 1987-ci ildə ali dövlət hakimiyyətindən uzaqlaşdırılmasından bir gün sonra M.Qorbaçovun iqtisadi məsələlər üzrə məsləhətçisi, Moskvadakı erməni mafiyasının başçılarından olan akademik Aqanbekyanın Fransanın "Humanite" qəzetində müsahibəsi çıxdı. Bu bədnam iqtisadçı alim müsahibədə iddia edirdi ki, Dağlıq Qarabağ iqtisadi cəhətdən Ermənistana yaxındır. Məhz bu idda az sonra Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi uğrunda separat çıxışların ideoloji əsasını təşkil etdi.

Erməni millətçilərinin Azərbaycana qarşı təxribat planlarını həyata keçirmək üçün əməli fəaliyyətə keçmələri də məhz bundan sonra başlandı. Xankəndidə, Göyçədə, İrəvanda biri-birinin ardınca soydaşlarımıza qarşı zorakılıqlar, qarət və qəsdlər törədildi, onların öz tarixi ata-baba yurdlarından qovulması ardıcıl xarakter aldı. Bütün bunlar sovet hökuməti başçılarının cinayətkar biganəliyi, laqeydliyi, Azərbaycana düşmən münasibəti fonunda həyata keçirilirdi.

Ermənistanda və Dağlıq Qarabağda soydaşlamıza qarşı davamlı olaraq törədilən cinayətlər, getdikcə daha da şiddətlənən ərazi iddiaları xalqımızın kəskin etirazına səbəb olur, özünümüdafiə tədbirləri görməsi zərurəti, öz səsini dünyaya çatdırmaq zərurəti doğururdu. Dağlıq Qarabağdakı separatçılığa qarşı 1988-ci ilin noyabr-dekabr aylarında Bakıda ümumxalq mitinqlərinin keçirilməsi, 1989-cu il dekabrın 31-də Naxçıvanda Azərbaycan-İran sərhədində tikanlı məftillərin sökülərək Arazın o tayındakı soydaşlarımızla əlaqə yaradılması cəhdləri SSRİ rəhbərliyini hədsiz dərəcədə qəzəbləndirdi. Nəticədə Azərbaycanda xalq hərəkatının yatırılmasına əlverişli zəmin yaratmaq üçün SSRİ Dövlət Təhlükəsizlik Komitəsi öz agentləri vasitəsilə Bakıda, Lənkəranda, Cəlilabadda, Neftçalada və digər bölgələrdə təxribat və iğtşaçlar törətdi. 1990-cı ilin yanvar ayında Bakıya qoşun hissələrinin yeridilməsi barədə qərar da guya bu iğtişaşların qarşısını almaq məqsədilə qəbul edilmişdi.

SSRİ və Azərbaycan rəhbərliyinin nümayəndələrinin televiziya ilə çıxış edərək, Bakıda fövqəladə vəziyyət tətbiq olunmayacağı, hərbi qüvvələrdən istifadə edilməyəcəyi, dinc əhaliyə atəş açılmayacağı barədə vədlər versələr də, şəhəri mühasirəyə almış, özü də əksəriyyəti Stavropoldan gətirilmiş, qəzəbli və azğınlaşmış erməni saqqallılarından ibarət dəstələr və güclü döyüş texnikası bir neçə saat sonra xəbərdarlıqsız hərəkətə keçdilər. Sovet imperiyasının rəhbərləri yanvarın 19-dan 20-nə keçən gecə Bakıda küçə və meydanlara toplaşmış azadlıqsevər insanlara atəş açılması barədə əmr verdilər, ordu dinc və günahsız əhaliyə qarşı döyüş əməliyyatına başladı.

O gecə tördilən vəhşi qırğının canlı şahidi kimi baş verənləri təfərrüatlı təsvir etmək çox çətindir. On illər keçsə də, bu dözülməz faciəni - millətimizə qarşı törədilən qətliamı, qeyrətli, vətənpərvər soydaşlarımızın qanına qəltan edilməsini unutmaq mümkün deyildir.

Həmin gecənin və ondan sonrakı günlərin faciəli statistikası indi hamıya məlumdur: Bakının müxtəlif rayonlarında sovet əsgərləri tərəfindən 137 insan qətlə yetirilmiş, 700-dən artıq vətəndaş yaralanmış və xəsarət almışdı. Onların arasında qadınlar və uşaqlar da vardı.

Xalqın ağır günündə ulu öndərimiz Heydər Əliyevin Moskvada öz haqq səsini ucaltması, sovet dövlətinə, onun rəhbərlərinə qətiyyət və cəsarətlə öz etirazını bildirməsi və bunun bütün dünyaya səs salması bizim hər birimiz üçün əvəzsiz təsəlli, eyni zamanda, qürurverici hadisə oldu. Yanvarın 21-də özünün və ailə üzvlərinin həyatını təhlükə altında qoyaraq Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələn Heydər Əliyev xalqımıza başsağlığı verdi və mətbuat konfransı keçirib, başda Qorbaçov olmaqla Bakıdakı terror aktına rəvac verən hakimiyyət nümayəndələrini və hərbçiləri cinayətkar, onların dinc əhaliyə tutduqları divanı isə bütöv bir xalqa qarşı edilən tarixi cinayət adlandırdı və bu vəhşiliyə etiraz əlaməti olaraq Kommunist Partiyası sıralarından çıxdığını bəyan etdi.

Təəssüf ki, ö dövrdə Azərbaycanda hakimiyyətdə olanlar qorxaqlıq, səbatsızlıq göstərdilər, xalqa qarşı xəyanət yolunu tutdular. Nə bu hadisələr zamanı qaçıb aradan çıxan maymaq Vəzirovdan sonra hakiməyyətə gətirilmiş A.Mütəllibov, nə də xalq azadlıq hərəkatı dalğasında müstəqil dövlətimizin idarəçiliyini ələ almış AXC-Müsavat cütlüyü 20 Yanvar hadisələrinə hüquqi-siyasi qiymət verməyi bacarmadılar.

Yalnız 1990-cı ilin iyulunda Moskvadan vətənə qayıdan Heydər Əliyevin təşəbbüsü ilə həmin il noyabr ayının 21-də Naxçıvan Muxtar Respublikasının Ali Məclisində 20 Yanvar faciəsinə ilk dəfə siyasi-hüquqi qiymət verən sənəd qəbul edildi. Azərbaycan xalqının ümumi rəyini özündə təcəssüm etdirən bu qərar Heydər Əliyev qətiyyətinin və cəsarətinin təzahürü idi. Sənəddə respublika rəhbərliyindən tələb olunurdu ki, 20 Yanvar faciəsinə siyasi-hüquqi qiymətin verilsin. Lakin xalqın istək və arzularına xilaf çıxan, milli mənafelərə biganəlik göstərən o vaxtkı respublika rəhbərliyi bu tələbin yerinə yetirmədi.

Bu şərəfli missiya yenə ulu öndər Heydər Əliyevin üzərinə düşdü. Xalqın təkidli tələbi ilə respublika rəhbərliyinə qayıdan ümummilli liderimiz 1994-cü il yanvarın 12-də keçirdiyi müşavirədə bu barədə deyirdi: "Xalqa təcavüz olunmuş, günahkarlar isə hələ müəyyənləşdirilməmişdir. Görünür ki, ötən yaxın illərdəki Sovetlər Birliyi, respublika rəhbərliyi, məsul şəxslər öz mənafeləri naminə bu böyük faciənin əsl mahiyyətini xalqa bəyan etməmişlər".

Ulu öndərimizin təşəbbüsü ilə hadisəyə tam siyasi-hüquqi qiymət verilməsi Milli Məclisə tövsiyə olundu və elə 1994-cü ildə parlamentimiz müvafiq qərar qəbul etdi.

Heydər Əliyev 20 Yanvar şəhidlərinin xatirəsinin əbədiləşdirilməsinə, onların ailələrinə dövlət qayğısının guclənd irilməsinə hər zaman böyük diqqət göstərir, hər il yanvarın 20-də Şəhidlər xiyabanı ziyarət edir, şəhid ailələri ilə görüşür, onların problemləri ilə maraqlanırdı.

Ulu öndərimizin layiqli davamçısı möhtərəm Prezidentimiz cənab İlham Əliyev də bu ənənəyə sadiqdir və 20 Yanvar şəhidlərinin xatirəsinin uca tutulmasına, şəhid ailələrinin sosial məsələlərinin həllinə xüsusi diqqət göstərir. "Həmin gün respublikada haqq-ədalətin bərqərar edilməsi tələbləri ilə çıxış edən Azərbaycan xalqının inam və iradəsini qırmaq, milli mənliyini alçaltmaq məqsədilə totalitar sovet rejiminin həyata keçirdiyi terror aktı nəticəsində bəşər tarixində insanlığa qarşı törədilmiş ən ağır cinayətlərdən biri baş verdi. Yüzlərlə günahsız insan yaralandı və qətlə yetirildi. Ən ağır sınaqlara sinə gərmək əzmini bütün dünyaya nümayiş etdirən Azərbaycan övladları 1990-cı il yanvarın 20-də xalqımızın qəhrəmanlıq salnaməsinə parlaq səhifə yazdılar" – bu fikirlər möhtərəm Prezidentimizə məxsusdur, xalqımızın qəhrəmanlıq salnaməsinə onun dərin ehtiramını ifadə edir.

Bu gün hər birimiz üçün müqəddəs ziyarətgaha çevrilmiş, 20 Yanvar faciəsi qurbanlarının və Ermənistanın hərbi təcavüzünə qarşı döyüşlərdə həlak olanların dəfn edildiyi Şəhidlər Xiyabanı məhz cənab İlham Əliyevin təşəbbüsü ilə tam təmir edilmiş və yenidən qurulmuşdur.

O məşum günlərin canlı şahidləri yaxşı xatırlayırlar ki, Dağüstü parkda 20 Yanvar şəhidləri üçün qəbirlər qazılarkən torpağın altından insan sümükləri çıxırdı. 1918-ci ilin martında Bakıda bolşeviklərin dəstəyi ilə erməni-daşnak dəstələri tərəfindən İsmailiyyə binasına yığılaraq yandırılan azərbaycanlıların cəsədləri məhz burada basdırılmışdı. Sovet dövləti həmin soyqırımını unutdurmaq üçün qəbirlərin üstündə gəzinti meydançası salmış, burada Kirovun heykəlini qoymuşdu. Amma tarix təkrarlanır: 1990-cı ilin yanvarına soyqırımı qurbanların ruhları azadlıq, müstəqillik uğrunda şəhid olan həmvətənlərimizin ruhları ilə birləşdi və bura xalqımızın əbədi və müqəddəs ziyarətgahına çevrildi.

...Milli azadlıq hərəkatının bütün iştirakçılarının, 20 yanvar şəhidlərinin və torpaqlarımızın bütövlüyü uğrunda canını fəda edən ən ümdə arzusu Azərbaycanı müstəqil və güclü bir dövlət kimi görmək idi.

Ümummilli lider Heydər Əliyevin müdrik və möhtəşəm fəaliyyəti, onun davamçısı cənab İlham Əliyevin qüdrətli və mükəmməl idarəçiliyi, siyasi uzaqgörənliyi sayəsində bu gün müstəqil Azərbaycan regionun liderinə, dünya birliyinin ən perspektivli dövlətinə çevrilmiş, xalqımız rifaha və firavanlığa qovuşmuşdur. Dövlətimizin hərbi və iqtisadi gücü, onun rəhbərinin dürüst və məqsədyönlü siyasəti ilə doğma Qarabağımız da tezliklə işğaldan azad ediləcək, bütöv və böyük Azərbaycan tarixə öz şanlı zəfərini əbədi yazacaqdır!

Allah bütün şəhidlərimizə rəhmət eləsin!




FOTOYADDAŞ















ŞƏHİD TALEYİ

# GÜNAHSIZ QURBANLAR

**♦ Özləri adi olan bu qəhrəmanların ölümləri qeyri-adi, ağlasığmaz olub. Heç kəsin xəyalına da gəlməzdi ki, qəlbi Vətən eşqi ilə çırpınan, əli silahsız, heç bir günahı olmayan bu atalar, analar, bacılar, qardaşlar, oğullar və qızlar o vaxtadək dost dediyimiz bir ordunun əli ilə qətlə yetiriləcək. Vətəni sevmək, onun namusunu qorumaq, müstəqlliyini arzu etmək məgər cinayətdir?! 1990-cı ilin yanvar hadisələri zamanı həlak olanların bir qismi heç küçəyə də çıxmamışdı, öz qayğıları ilə məşğul idi. İmperiya qoşunları onların da qanına susamışdılar.**

**Yazıçı Rafiq Səməndərin hadisələrdən sonra dərc etdirdiyi «Şəhidlər» kitabında Bakıda dinc əhaliyə qarşı imperiya ordusunun törətdiyi qanlı cinayətlərin qurbanları haqqında söhbət açılır. Şəhidlər arasında bir neçə energetik də var idi…**

### İŞIQÇINI STOLA QALDIRANDA İŞIQLAR SÖNDÜ…

… Sonuncu iş yerindən verilmiş vəsiqədə ancaq bu sözləri oxuya bildim: «4 nömrəli vəsiqə. 8 nömrəli şəbəkə. Rayon… Montyor. …zifəsində işləyir. Bakı ele… …şəbə…» vəsiqə büsbütün qan içində idi. Sözləri qandan oxuya bilmədim. Əvvəlcə elə bildim qırmızı üzlü vəsiqədir. Diqqətlə baxanda gördüm ki, yox, bu vəsiqəni Ağahəsənin qanına boyayıblar.



Ağahəsən Yarıq oğlu Ağahüseynovun peşəsinin bir adı var idi: elektrik ustası. Küçələrdə elektrik məftili qırılsaydı, Ağahəsəni çağırar, lift işləməyəndə Ağahəsəni səsləyərdilər. Bu idi onun işi-gücü. Onunku ancaq işıq idi. Evin işığı, küçələrin işığı. Bircə şeyi bilirdi ki, işığımızı kəsmək, məftili qırmaq olmaz. Xalqın işığını kəssələr, çörəyi olmaz. Çörəyi olmasa, körpələr acından qırıla bilər. Bu da millətə bəla gətirə bilər.

O müdhiş gecədə Ağahəsən «Salyan» kazarmalarının yaxınlığında dostları ilə ocaq qırağında idi. Birdən göyə fişəng atıldı. Kazarmadan çıxan tank yolu kəsmiş ağır yük maşınlarını itələyə-itələyə özünə yol açdı. Sonra hər tərəfdən güllələr yağmağa başladı. Hərə bir tərəfə qaçırdı. Ağahəsən isə yerə yıxıldı. Güllə onun qarnından dəymişdi. Dostları köməkləşib «Eksperimentalnıya» apardılar. Elə stola qaldıranda işıqlar söndü. Dedilər, qan lazımdır. Dərhal ona 200 qram qan vurdular. Səhərə yaxın yarası açıldı. Səhər saat 7-də keçindi…

### AĞLAMAQDAN ANADA GÖZ QALMAMIŞDI…

… Orta məktəbi bitirərkən medala namizəd idi. Lakin ailənin «medal şirinliyi» verməyə imkanı yox idi. Elə birinci il M.Əzizbəyov adına Neft və Kimya İnstitutunun energetika fakültəsinə qəbul olundu. Kaş o günlər təzədən qayıdaydı. Rahim Vaqif oğlu Babayev elə hey deyirdi: «Haqq nazilər, üzülməz». Sinifdən və məktəbdən ali məktəbə cəmi iki nəfər qəbul olunmuşdu.

1990-cı il yanvarın 18-də Rahim evlərinə, Ordubada zəng vurdu. Yaqut ana deyirdi: «Onun aydın səsi indi də qulaqlarımdadır. Xeyli danışdıq. Bacısına öyüd-nəsihət etdi. Mən ona and verdim ki, Rahim, qurban olum, bir halda ki, imtahanları vaxtından qabaq vermisən, çıx gəl. Qayıtdı ki, mama, praktikamız var, qurtarıb gəlirəm. Bir də mənə xeyir-dua ver, Bakıda vəziyyət pisdir. Sanki məndən halallıq istəyirdi… Oğul, niyə mənim yalvarışlarıma, göz yaşlarıma məhəl qoymadın? Axı, sən Ordubadı çox sevirdin. Heç məzarın da Vətəndə olmadı.

Ayın 20-si səhər saat 6-da radioda xəbər verdilər ki, Bakıya qoşun girib. Hamımız Rahimdən nigaran idik. Üç gün ərzində Bakı ilə danışa bilmədik. Bütün qohumlar xəstəxanaları ayaqdan salsalar da Rahimdən xəbər tuta bilmədilər. Ayın 24-ü gecə bizə bildirdilər ki, Rahim itkin düşüb. Bir gün sonra onu meyitxanadan tapdılar…

Rahim Babayev energetika fakültəsi həsmkarlar təşkilatının sədri idi. Onda böyük təşkilatçılıq qabiliyyəti var idi.

Qrup yoldaşı Bahəddinin söylədiyinə görə «Salyan» kazarmasında ikisindən birinin xilas olmaq imkanı var idi. Rahim onun hasardan keçməyinə kömək edib, özü isə həlak olub. Kişi qeyrətli oğul, öləndə də xeyirxah olub…

### GÜLLƏLƏNƏNDƏ DİLİNDƏ «ANA, VƏTƏN» SÖZLƏRİ VAR İDİ…

«Əlimərdan Hüseynov təmkinli, qeyrətli oğlan idi. Heç nəyə, heç kimə qoşulan deyildi. Yaxşı əmək haqqı alırdı. Ayıq, duzlu-məzəli, söhbətcil və zarafatcıl idi. Verdiyi sözə hökmən əməl edərdi».

«Azərelektroterm» İstehsalat Birliyində onun haqqında bu sözləri dedilər. O, həm də axşamlar «Leyla» şadlıq evində elektrik işləyirdi. O axşam işdən çıxanda yoldaşıgilə gedib. Bir qədər yeyib-içiblər. Üoldaşı onu evə buraxmaq istəməyib. Deyib qal, səhər gedərsən, şəhərdə qarışıqlıqdı. Qulaq asmayıb. Çölə çıxan kimi «şanlı ordu»nun gülləbaranına düşüb. Əvvəlcə qıçından yaralanıb. Ancaq ürəyini güllədən qoruya bilməyib. Üstəlik, yaralı şəhidi dubinka ilə də döyüblər. Bədəninin sağ tərəfi döyülməkdən qapqara qaralıb….



… Toyları yazda olacaqdı. Yaz günəşinin çıxmağını gözləyirdi. Yeni ildə nişanlısına qərənfil alıb gətirmişdi. Və demişdi ki, mən ən xoşbəxt adamam. Sən demə, bədbəxtlik onu qarabaqara izləyirmiş. Bu qərənfildən o, yenə də gətirməli idi nişanlısına. Lakin o güllər Əlimərdanın məzarına qoyuldu. Yanvar ayında həyata göz açmışdı, yanvar ayında da həyatdan köçdü.

Əlimərdanın anadan olduğu yer keçmiş Puşkin rayonunun (indiki Biləsuvar) keçmiş Fioletov kəndi idi. Taleyin hökmünə bax. Ona güllə atan kim olub bəs? Puşkin, Fioletov, İvanov, Petrov…

# Texniki-iqtisadi göstəricilər yüksəkdir

**♦ Yola saldığımız 2015-ci il təkcə ölkə energetikləri üçün deyil, bütün respublika üçün də əlamətdar hadisələrlə yada qalmışdır. Dövlət proqramlarında elektrik enerjisi sistemində nəzərdə tutulmuş layihələr uğurla həyata keçirilmişdir.**

Qeyd etmək yerinə düşərdi ki, ölkə Prezidenti İlham Əliyevin müəllifi olduğu Dövlət Proqramına uyğun respublikamızda istismara verilən yeni generasiya güclərinin sayı artmaqdadır. Dövlət Başçısının rəhbərliyi altında ötən 12 il ərzində respublikanın müxtəlif regionlarında ümumi gücü 2300 MVt-dən artıq olan çoxlu sayda yeni elektrik stansiyası istismara verilmişdir. O cümlədən, alternativ və bərpa olunan enerji mənbələrindən istifadə istiqamətində pik gücləri artırılmışdır.

2015-ci ildə də enerjisistemin dayanıqlılığının artırılması, əhalinin və iqtisadiyyatın elektrik enerjisi ilə təminatının daha da yaxşılaşdırılması istiqamətində işlər davam etdirilmişdir.

“Azərenerji” ASC-nin Enerjinin İstehsalı idarəsindən SC-nin Mətbuat xidmətinə daxil olan məlumatda o da bildirilir ki, ötən illərdə istismara verilmiş dünya standartlarına cavab verən müasir qurğu və avadanlıqlarla təchiz edilmiş generasiya güclərindən biri də 780 MVt gücündə olan “Cənub” Elektrik Stansiyasıdır.

Mənbəyə istinadən qeyd edək ki, dispetçer qrafikinə uyğun olaraq həmin stansiyada 2015-ci il ərzində 3 milyard 801,3 milyon kilovat-saatdan artıq elektrik enerjisi istehsal edilmişdir. O cümlədən, ötən ilin dekabr ayında 472,6 milyon kilovat-saata yaxın elektrik enerjisi istehsal edilmişdir.

Həmin dövrdə elektrik enerjisi istehsalının digər texniki göstəricilərində də yüksək nəticələr əldə edilmişdir.

Mənbənin sözlərinə görə, bu, avadanlıqların istismar səviyyəsinin yüksəldilməsinə, müasir metodlardan istifadəyə yönəldilmiş stansiya personalının dəqiq təşkil olunmuş işinin nəticəsidir.

Yeri gəlmişkən, istismara verildiyi vaxtdan ötən ilin sonunadək bu stansiyada, dispetçer qrafikinə uyğun olaraq, 9 milyard 270,2 milyon kilovat-saata yaxın elektrik enerjisi istehsal edilmişdir.

Onu da qeyd edək ki, digər enerji obyektlərində olduğu kimi, burada da yanğın təhlükəsi olan bütün yerlər diqqətdə saxlanılır və onlar təlimata uyğun olaraq yanğına qarşı ləvazimatlarla tamamilə təmin olunmuşdur.

Xatırladaq ki, bu stansiyanın Abşeron yarımadasının və cənub bölgəsinin enerji təhlükəsizliyinin daha da möhkəmləndirilməsində, enerjinin ötürülməsi və paylaşdırılması sistemlərinin daha dayanıqlı və sabit işləməsinin təmin edilməsində böyük rolu var.

ENERJİSİSTEM

*ENERGETİKA MƏNZƏRƏLƏRİ*



# Avadanlıqlara xidmət diqqət mərkəzindədir

**♦ Müasir texnologiyaların tətbiqi ilə tikilərək istifadəyə verilmiş 12 aqreqatdan ibarət, ümumi gücü 105 MVt olan Bakı elektrik stansiyasında aqreqatlarda planlı təmir-sazlama işləri texniki xidmət qrafikinə uyğun aparılır. Hazırda aqreqatlar dispetçer qrafikinə uyğun olaraq fəaliyyətini davam etdirir.**

“Azərenerji” ASC-nin Enerjinin İstehsalı idarəsindən SC-nin Mətbuat xidmətinə daxil olan məlumata görə, həmin stansiyada 2015-ci il ərzində 523,5 milyon kilovat-saata yaxın elektrik enerjisi istehsal edilmişdir.

Qeyd edək ki, stansiyada ötən ilin dekabr ayında isə 45,5 milyon kilovat-saata yaxın elektrik enerjisi istehsal edilmişdir.

Avadanlıqların iş səmərəliliyinin artırılması, enerjinin ötürülməsi sistemlərinin dayanıqlı, sabit işləməsinin və istismar səviyyəsinin yüksəldilməsi istiqamətində həyata keçirilmiş məqsədyönlü tədbirlər nəticəsində sözügüdən dövrdə elektrik enerjisi istehsalının digər texniki-istehsalat göstəriciləri üzrə də yüksək nəticələr əldə edilmişdir.

“Tələbatçılara keyfiyyətli və dayanıqlı elektrik enerjisinin ötürülməsində, tapşırıqların uğurla yerinə yetirilməsində kollektivimiz səylə çalışır, aqreqatlarda aparılan texniki xidmət işlərində də fəal iştirak edirlər” – deyən mənbə onu da qeyd etdi ki, təftiş-təmir işləri stansıyanın təmir briqadası tərəfindən aparılır.

Onu da qeyd etmək yerinə düşərdi ki, ötən ilin son üç ayı ərzində də stansiyada təmir işləri aparılmış, təmir qrafikinə uyğun olaraq 10 saylı aqreqatın əsaslı təmiri başa çatdırılmış, 12 saylı aqreqatda isə aparılan əsaslı təmir işləri davam etdirilir. Eyni zamanda sözügedən dövrdə digər aqreqatlarda növbəti istismar həddinə uyğun texniki xidmət işləri də aparılmışdır. Bütün bunlarla yanaşı generatorlarda da müxtəlif təyinatlı təmir işləri həyata keçirilmişdir.

Mənbədən əldə etdiyimiz digər bir məlumatda o da qeyd edilir ki, stansiyanın elektrik avadanlıqlarına da texniki baxışlar keçirilmiş və 110 kV-lik yarımstansiya avadanlıqlarında cari təmir işləri aparılmışdır.

Yanğın təhlükəsizliyi məsələsinin, abadlıq işlərinin də daima diqqət mərkəzində saxlanıldığını deyən mənbə əlavə etdi ki, sexlər, inzibati bina və yardımçı binalarda yanğınsöndürmə avadanlıqları təftiş olunmuş, ərazi quru otlardan və yanğın törədə biləcək tullantılardan təmizlənmişdir.

ELM

# Doktorantlarla görüş keçililib

**♦ Dünən "Azərbaycan Elmi-Tədqiqat və Layihə-Axtarış Energetika İnstitutu" (AET və LAEİ) MMC-də əvvəlki illərin doktorantları ilə yeni qəbul olunmuş doktorantların görüş keçirilib.**

Tədbiri giriş sözü ilə açan Azərbaycan Elmi-Tədqiqat və Layihə-Axtarış Energetka İnstitutunun direktoru, akademik Arif Həşimov bildirdi ki, ölkəmizdə həyata keçirilən elm, təhsil siyasəti olduqca düşünülmüş, xalqın milli mənafeyinə xidmət edən, ölkəmizin təhsil və elmi potensialını daim inkişaf etdirməyə yönələn kompleks bir siyasətdir. Elmin inkişafı istiqamətində yaradılmış bu münbit şəraitdən yararlanan AET və LAEİ də qazandığı nailiyyətlərlə bu sahənin tərəqqisinə öz töhfəsini verməkdədir.

Doktoranturaya qəbulla bağlı yeniliklərdən söz açan akademik Arif Həşimov bildirdi ki, təhsilin keyfiyyətini yüksəltmək məqsədilə bu ildən etibarən Azərbaycan Elmi-Tədqiqat və Layihə-Axtarış Energetka İnstitutuna qəbul yalnız əyani formada davam etdiriləcək.

İnstitutda doktorantlar üçün yaradılan şəraitdən danışan direktor bildirdi ki, dünyada baş verən qlobal böhran, neftin qiymətinin kəskin şəkildə aşağı düşdüyü müasir dövr bizə neft kapitalından intellektual potensiala keçməyi diqtə edir. Günün bu vacib tələbi elmi iş yazan gənclərin də üzərinə böyük məsuliyyət qoyur. Seçdiyi ixtisas üzrə savadlı mütəxəssis olmağın yolu isə bu məsulyyəti dərindən dərk etməkdən, elm yolunda çəkilən zəhmətdən keçir.

Akademik Arif Həşimov deyib ki, Azərbaycanda energetika üzrə ilk elm məbədgahı olan AET və LAEİ yarandığı gündən xalqımızın tarixində mühüm hadisəyə çevrilərək böyük nüfuz qazanıb. Elmi-intellektual potensialı, tədrisin yüksək keyfiyyəti ilə ölkənin hüdudlarından kənarda da tanınan bu elm məbədinin şərəfli tarixini öyrənmək doktorantlar üçün də vacib məsələdir.

Tədbirdə çıxış edən AET və LAEİ-nin Elmi işlər üzrə direktor müavini Əsəf Hüseynov deyib ki, müasir dövrdə elektrik energetikası sahəsində elmi tədqiqatlar, yaradıcılıq axtarışlarını aparmaq üçün elmi-texniki ədəbiyyata böyük ehtiyac var. Bu baxımdan, institutun nəzdində fəaliyyət göstərən elektrik energetikası sahəsi üzrə ixtisaslaşmış kitabxanadan doktorantlar da lazımınca bəhrələnə bilərlər. Burada energetikanın bütün sahələrinə, həmçinin digər elmlərə aid çoxlu ədəbiyyat cəmləşib.

Görüşün sonunda doktorantların sualları ətraflı şəkildə cavablandırılıb, onları maraqlandıran elmi və təşkilati məsələlər izah edilib.

**Sadıq QARAYEV**

SAĞLAMLIQ

## Xərçəngin qənimi olan bitki

**♦ Şabalıd qış mövsümündə ən çox istifadə edilən qidalardan biridir. “Qadinlar.biz” saytının məlumatına görə, aparılan yeni araşdırmalar şabalıdın xərçəngə qarşı təsirli olduğunu ortaya çıxarıb.**

Şabalıd vitamin və minerallarla zəngindir. Xüsusilə, C vitamini mənbəyi olması onu qış aylarının vaz keçilməz qidasına çevirir. Güclü antioksidantlar ehtiva etdiyi üçün xərçəngə qarşı təsirlidir. Şabalıd dəmir, kalsium, maqnezium, fosfor və sinklə zəngindir.

Bütün bu faydalı xüsusiyyətlərinə baxmayaraq, şəkər xəstələri və ideal çəkidə qalmaq istəyənlər şabalıd yeyərkən diqqətli olmalı, müəyyən həddi keçməməlidirlər. Çünki şabalıd şəkər xəstələrində təzyiqin yüksəlməsinə səbəb ola bilər. 3 ədəd iri şabalıd 1 dilim çörəklə eyni miqdarda kalori ehtiva etdiyi üçün insanı kökəldir.

*DÜNYADAN SORAQLAR*

*TÜRKİYƏ*

## Enerji daşıyıcıları idxalına hər il 60 milyard dollar xərclənir

**♦ «Hazırda Türkiyə enerji daşıyıcılarının idxalından 72 faiz asılıdır», - deyə Türkiyə Respublikası energetika və təbii ehtiyatlar nazirinin müavini Necati Yamac bildirib. – Biz hər il bu sahəyə 60 milyard dollar sərf edirik».**

Türkiyə Respublikası ölkədə istehlak olunan təbii qazın 98 fazini, neftin 92 faizini və kömürün 20 faizini xaricdən idxal edir.

Ankarada, Hacettepe Universitetində radiasiyadan mühafizə üzrə birinci milli konqres keçirilib. Tədbirin təşkilatçısı rolunda Türkiyənin radiasiyadan mühafizə üzrə mütəxəssislər cəmiyyəti (RADOKOR) çıxış edib.

Konqresdə Türkiyə Respublikası icra hakimiyyəti orqanlarının nümayəndələri, atom energetikası ilə əlaqəli şirkətlərin mütəxəssisləri iştirak ediblər.

Tədbirdə radiasiyadan mühafizə sahəsində milli infrastrukturun inkişaf etdirilməsi, atom elektrik stansiyaları üçün peşəkar və elmi kadrların hazırlanması, elmi tədqiqatlar aparılarkən, təbii mənşəli radioaktiv maddələrdən istifadə zamanı radiasiyadan mühafizə məsələləri müzakirə edilib.

Konqresin açılışında Türkiyənin energetika və təbii ehtiyatlar nazirinin müavini Necati Yamac çıxış edib, xatırladıb ki, AES tikintisi barədə plan Türkiyədə 50 il əvvəl yaranıb, nüvə energetikası isə təkcə atom elektrik stansiyalarının inşasını deyil, həm də sənayenin və texnologiyaların inkişafına təkan verən və ölkə üçün mühüm əhəmiyyət kəsb edən yeni sahənin yaradılması deməkdir. «Hazırda Türkiyə elektrik enerjisi daşıyıcılarının idxalında 72 faiz xaricdən asılıdır, - deyə Necati Yamac öz çıxışında bildirib. – Biz hər il bu cür xərclərə 60 milyard dollar sərf edirik. Türkiyə Respublikası ölkədə istehlak olunan təbii qazın 98 faizini, neftin 92 faizini və kömürün 20 faizini xaricdən alır. Qeyd etmək istərdim ki, atom elektrik stansiyaları hətta neft və qaz ehtiyatları ilə zəngin olan ölkələrdə də fəaliyyət göstərir. Bizim üçün AES tikintisi vacibdir», - deyə o əlavə edib.

Radiasiyadan mühafizə cəmiyyətinin sədri Könül Buyan konqres iştirakçılarına və qonaqlara minnətdarlığını bildirib və əlavə edib: «Biz Türkiyədə atom sahəsinin inkişafı prosesini diqqətlə izləyirik, nüvə texnologiyalarından istifadə olunmasına tərəfdarıq».



*UKRAYNA*

## Yeni kondensatorlu turbin işə salınıb

**♦ Cənubi Ukrayna AES-in 2-ci enerji blokunda B sırasından olan yeniləşmiş kondensatorlu turbin işə salınıb. Quraşdırmadan sonra kondensatorun hidravlik sınaqları keçirilib və vakuum sistemi yoxlanıb. Sonralar blok enerji şəbəkəsinə qoşulub və hazırda 940 MVt yük altındadır.**

2015-ci ilin fevralında bağlanan müqaviləyə uyğun olaraq, «Turbinatom» SC Cənubi Ukrayna atom elektrik stansiyası üçün blok-modul tipli kondensator hazırlayıb və sifarişçiyə çatdırıb. Avadanlığın dəyişdirilməsi soyuducu suyun temperaturunda dəyişiklik zamanı turbin generatorunun nominal gücdə işləməsinə imkan verəcək, həmçinin gücü artıracaq və enerji blokunu istismar dövrünün uzadılması müddətində işlə təmin edəcək.

Kondensator iki A və B sırasından ibarətdir, onların hər birinin tərkibinə üç korpus daxildir, hər kopusda 8 modul var – cəmi 48 modul mövcuddur.

Hazırda müəssisədə A sırasından olan kondensatorun korpuslarının hazırlanması başa çatır. Cari ilin sonunadək avadanlıq hazırlanacaq, sifarişçiyə təqdim ediləcək və yüklənmək üçün göndəriləcək.

*FİNLANDİYA*

## Stansiyanın tam layihə sənədləri hazırlanır

**♦ «Xanxikivi-1» AES tikintisinin sifarişçisi «Fennovoima» və Finlandiyanın nəzarət orqanı olan STUK «Atomproyekt» SC-nin işinin auditini aparıblar.**

Finlandiya mütəxəssisləri üç gün ərzində radiasiya təhlükəsizliyi və AES-in təhlükəsizlik dərəcəsinin analizi sahəsində sənədlərin, habelə Rusiya layihə institutunun işlədiyi menecment sisteminin Avropa standartlarına uyğunluq dərəcəsini təhlil ediblər.,,

Yoxlamanın yekunlarına əsasən «Fennovoima» şirkətinin mütəxəssisləri sənədlərin normativ tələblərə uyğun gəldiyini təsdiqləyiblər. Təhlilin nəticələrinə əsasən xarici auditorlar tərəfindən «Xanxikivi-1» AES-in işinin uçota alınması sənədlərinin hazırlanması barədə «Atompryekt»ə tövsiyələr verilib.

2014-cü ilin oktyabrında «Atomproyekt» «Xanxikivi-1» AES-in tam layihə sənədlərinin hazırlanmasına dair müqaviləni imzalayıb və baş layihəçi statusunu təsdiqləyib.

*QAZAXISTAN-ÇİN*

## İstilik ayıran quraşdırıcıları zavod tikiləcək

**♦ Çin Xalq Respublikasının elektrik stansiyaları üçün yanacaq istehsalı quraşdırıcılarının gücü ildə 200 ton olan «Ulbinsk metallurgiya zavodu» SC-nin bazasında yaratmaq planlaşdırılır.**

Qazaxıstan Respublikasının Baş naziri Kərim Məsimovun ÇXR-ə rəsmi səfəri çərçivəsində «Kazatomprom» MAK» SC idarə heyətinin sədri Askar Jumaqaliyev və CGNPC-in (China General Nuklear Power Corporation) baş direktoru Çjan Şanmin Qazaxıstanda istilikburaxan quraşdırıcı zavodu tikintisinin layihələndirilməsi, inşası və Qazaxıstanda uran yataqlarının birgə işlənməsi barədə saziş imzalayıblar.

Həmçinin «Kazatomprom» milli atom şirkəti, «China General Nuclear Power Corporation» və CITIC Group Corporation» arasında əməkdaşlvq etmək niyyəti barədə üçtərəfli saziş də bağlanıb.

Sənədi «Kazatomprom» MAK» SC idarə heyətinin sədri Askar Jumaqaliyev, «China General Nuklear Power Corporation»un prezidenti Tsiyan Jimin, «CITIC Group Corporation» sədrinin müavini və prezidenti Vanq Jonq imzalayıblar.

Tərəflər uzunmüddətli strateji partnyorluq və qarşılıqlı hərəkət sahəsində kifayət qədər təcrübəyə malikdirlər və atom sənayesi və energetikada əməkdaşlığı daha da möhkəmləndirmək niyyətindədirlər. Saziş çərçivəsində fəaliyyətin ən müxtəlif istiqamətlərində üçtərəfli əməkdaşlığın imkanlarını və yollarını müəyyən etmək üçün birgə işçi qrupunun yaradılması planlışdırılır.

*İNDONEZİYA*

## Çoxfunksiyalı tədqiqat nüvə reaktoru qurulacaq

**♦ 2015-ci il dekabrın 14-də Rosatomun «TVEL» yanacaq şirkəti və İndoneziyanın Atom Enerjisi üzrə Milli Agentliyi (BATAN) qarşılıqlı anlaşma barədə memorandum imzalayıblar.**

Sənədlərin imzalanma mərasimi Cakarta şəhərində «Müasir texnologiyalar və Rusiya atom sənayesinin durumu» mövzusunda keçirilən seminarda keçirilib. Tədbir BATAN agentliyi ilə birgə «Rusatom-Beynəlxalq şəbəkə» tərəfindən təşkil edilib.

Memorandumun məqsədi nüvə yanacaq silsiləsi (NJC) sahəsində müxtəlif istiqamətlərdə Rusiya-İndoneziya əməkdaşlığının inkişaf etdirilməsi üçün şərait yaratmaqdan ibarət olub.

«Nüvə texnologiyaları sahəsində İndoneziyanın Rusiya ilə əməkdaşlığa maraq göstərdiyinə görə biz çox məmnunuq. Rosatomun yanacaq şirkəti indoneziyalı partnyorlarına HJC sahəsində müasir və təhlükəsiz yollar təklif etməyə və onilliklər ərzində topladığı təcrübə əsasında hər iki tərəf üçün sərfəli əməkdaşlığı inkişaf etdirməyə hazırdır», - deyə «TVEL» SC-nin nümayəndəsi bildirib.

BATAN milli agentliyinin nümayəndəsi isə qeyd edib ki, bu sənəd HJC sahəsində birgə layihələrin reallaşdırılması üçün möhkəm baza yaradır. «Bu gün İndoneziyada üç tədqiqat reaktoru istismar edilir, həmçinin çoxfunksiyalı tədqiqat reaktorunun tikintisi planlaşdırılır. Atom sahəsində həm cari, həm də gələcək layihələr çərçivəsində səmərəli və təhlükəsiz işləmək üçün bizə etibarlı, təcrübəli partnyorlar gərəkdir. Rosatomun «TVEL» yanacaq şirkəti dünyanın yanacaq bazarının liderlərindən biri kimi məhz belə partnyorlardandır», - İndoneziyanın Atom Enerjii üzrə Milli Agentliyinin nümayəndəsi belə deyib.

Cakarta şəhərində «Müasir texnologiyalar və Rusiya atom sənayesinin durumu» mövzusunda keçirilən seminar atom texnologiyalarının tətbiqində Rusiya təcrübəsinə həsr edilmişdi. Rosatomun «TVEL» yanacaq şirkətinin nümayəndələrindən əlavə, Rusiyanın digər qabaqcıl atom sənayesi müəssisələrinin işçiləri də çıxış ediblər. İndoneziya tərəfindən müxtəlif nazirliklərin, idarələrin, habelə iri şirkətlərin 100-dən artıq nümayəndəsi iştirak edib.

*FRANSA*

## Şirkət 3,9 milyard avro həcmində sifariş alıb

**♦ Fransanın «Alstom» şirkəti 2015-ci ilin 9 ayı ərzində 18 milyon avro qazanc əldə edib, davamlı fəaliyyətdən sərbəst pül axını (maliyyə əməliyyatları üzrə vergilər və xərclərin ödənilməsinədək) sıfıra bərabər olub.**

2015-ci il aprelin 1-dən sentyabrın 30-dək «Alstom» 3,9 milyard avro həcmində sifarişlər alıb, sifarişlərlə gəlirlər arasındakı göstəricilər nisbəti 1,2-yə bərabər olub. Həmin dövr ərzində satışın həcmi 8 faiz artıb (üzvi artım 4 faiz) və 3,3 milyard avro təşkil edib.

Əməliyyatdan mənfəət (korporativ xərclər çıxıldıqdan sonra) 167 milyon avroyadək çoxalıb ki, bu da ötən ilin birinci yarısında olduğundan (152 milyon avro) 10 faiz çoxdur.

«2015/2016-cı maliyyə ilində «Alstom» nəqliyyat sektorunda güclü kommersiya göstəricilərinə nail olub, 3,9 milyard avro səviyyəsində sifariş alıb. Satışın həcmi 8 faiz artıb, əməliyyatdan mənfəət 10 faiz çoxalıb. Orta proqnozlarımız dəyişilməz qalıb», - deyə şirkətin prezidenti və baş direktoru Patrik Kron bildirib.

Davamlı fəaliyyətdən sərbəst pul axını (vergilər və maliyyə xərcləri çıxılanadək) 2015/2016-cı maliyyə ilinin birinci yarısında 5 milyon avroya bərabər olub. Bu göstərici isə bəzi layihələrin reallaşdırılması sürətinin artırılması nəticəsində əldə edilib.

2015-ci il sentyabrın sonlarında qrupun öhdəsində 1,8 milyard avro həcmində pul vəsaiti olub.

Qrupun təmiz maliyyə borcu 2015-ciil sentyabr ayının 30-da 4803 milyon avroyadək yüksəlib (2015-ci il martın 31-də 3143 milyon avro), bu daha çox mənfi sərbəst pul axını hesabına əldə olunub.

Hesabat dövründə səhmdar kapitalı azalıb və 2015-ci il sentyabrın 30-da 3744 milyon avroya bərabər olub (2015-ci il martın 31-də 4224 milyon avro).

Yaxın perspektivdə gəlirin ildə 5 faiz səviyyəsində artması və əməliyyatdan mənfəətin rentabelliyinin 5-7 faiz yüksələcəyi proqnozlaşdırılır. Gözlənilir ki, sərbəst pul axını təmiz gəlir göstəriciləri səviyyəsinə çıxacaq.

Patrik Kronun aksiyaların geri alınmasından sonra şirkətin prezidenti və baş direktoru səlahiyyətlərindən imtina etməsi barədə verdiyi bəyanata əsasən direktorlar şurası şirkətin prezidenti və baş direktoru funksiyalarını bir vəzifə çərçivəsində Anri Pupar-Lafarja həvalə etmək niyyətində olduğunu bildirib. O, hazırda «Alstom»un direktoru və vitse-prezidenti vəzifəsini icra edir. Anri Pupar-Lafarja həmin səlahiyyətləri öz üzərinə götürməyə hazır olduğunu bildirib.

Bundan əlavə, direktorlar şurasının üzvləri Lalite Qupte və Katrina Landis 2015-ci il dekabrın 31-dən səlahiyyətlərindən imtina etmək niyyətində olduqlarını bildiriblər. Direktorlar şurası heyətin sayının optimallaşdırılması məqsədilə bu vəzifələrin gələcəkdə tutulmsını planlaşdırmadığını bildirib.

***Materialı hazırladılar: V.Məmmədov, Ə.Baxşəliyev***

MARAQLIDIR

## Bir stəkan suyun tərkibində 10 milyon faydalı bakteriya var

**♦ İsveçin Lund Universitetinin alimləri adi kəmər suyunu tədqiq edərək, onun tərkibində xeyli faydalı mikroorqanizm aşkar ediblər. Tədqiqatın nəticələri KİV-də dərc olunub.**

Ekspertlər bildirirlər ki, bir stəkan təmiz içməli suyun tərkibində təqribən 10 milyon faydalı bakteriya var. Bu bakteriyalar suyu təmizləməyə kömək edir və onu təhlükəsiz edir.

Lakin alimlər qeyd edirlər ki, hazırda bu mikroorqanizmlər az öyrənilib. Kəmər suyunda və boruların daxili səthində məskunlaşan bu bakteriyalar burada nazik yapışqan örtük – bioplyonka əmələ gətirir. Onlar su anbarından evdəki kranlaradək uzanan boruların daxili səthini örtür.

Tədqiqatçılar hesab edirlər ki, bu bakteriyalar suyun təhlükəsizliyində əvvəllər hesab edildiyindən daha böyük rol oynayır. Məsələn, onlar hesab edirlər ki, su təkcə təmizləyici qurğularda deyil, borularda da təmizlənir.

Tədqiqatın müəllifi Ketrin Pol deyib: “Daha əvvəl bizə məlum olmayan tamamilə başqa ekosistem aşkar etmişik. Əvvəllər siz çətin ki hər hansı bakteriya görə bilərdiniz, lakin indi DNT-nin sekvenləşdirilməsi və axar sitometriya kimi üsullar sayəsində biz bir millilitr içməli suda 80 minə qədər bakteriya aşkar etmişik”.

Ekspertlər bildirirlər ki, su kəməri sistemində azı bir neçə min müxtəlif növ suyun keyfiyyətinə təsir göstərən bakteriya yaşayır. Bu məlumat suyun insan sağlamlığına təsirinin öyrənilməsində faydalı ola bilər.

XƏBƏRDARLIQ

## Yanvarın 20-də paytaxtın bəzi küçə və prospektlərində nəqliyyatın hərəkəti məhdudlaşdırılacaq

**♦ Bakı Şəhər Dövlət Yol Polisi İdarəsinin bölmə rəisi, polis polkovniki Vaqif Əsədov AZƏRTAC-a bildirib ki, Azərbaycan xalqının tarixi yaddaşına həkk edilmiş qanlı 20 Yanvar faciəsində şəhid olanların əziz xatirəsinin yad edilməsi məqsədilə keçiriləcək mərasimlə əlaqədar Parlament prospekti istiqamətində bütün avtomobillərin hərəkətinə məhdudiyyət qoyularaq istiqamət dəyişdiriləcək.**

Bununla əlaqədar, yanvarın 20-də səhər saat 8.00-dan şəhidlərin xatirəsini yad edən hərəkat iştirakçılarının rahat, təhlükəsiz və fasiləsiz hərəkətinin təşkil edilməsi məqsədilə Mehdi Hüseyn küçəsi, Teleteatr 1 ünvanından - yəni, Teleteatr binasının yanından, Mikayıl Müşfiq küçəsi ilə Hüseyn Cavid prospektinin kəsişməsindən, Mətbuat prospekti Mikayıl Müşfiq dairəsindən, eyni zamanda, Milli Məclisin inzibati binasının arxasından, yəni İzzət Nəbiyev-Abbasqulu Abbaszadə küçələrinin kəsişməsindən Parlament prospekti-Şəhidlər xiyabanı istiqamətində bütün avtomobillərin hərəkətinə tam məhdudiyyət qoyularaq istiqamət dəyişdiriləcək.

Bakı Şəhər Baş Polis İdarəsinin Dövlət Yol Polisi İdarəsi tədbir başa çatana qədər bu istiqamətdə avtomobillərin hərəkətinin mümkünsüzlüyünü nəzərə alaraq əhalidən, avtomobil sahiblərindən və sürücülərdən xahiş edir ki, alternativ yollardan istifadə etsinlər, ziyarətə gələnlər isə ictimai nəqliyyata üstünlük versinlər.

*Təsisçi:* **“Azərenerji” ASC**
*Naşir:* **“Azərbaycan Elmi-Tədqiqat və Layihə-Axtarış Energetika İnstitutu” MMC**

*Baş redaktor:* **Elşən ƏLİYEV**



***Redaksiyanın ünvanı:*** AZ 1012. Bakı şəhəri, Həsən bəy Zərdabi prospekti, 94.
***Telefonlar:*** (012) 430-01-20; ***daxili:*** baş redaktor - (075) 216, şöbələr - (075) 214; (075) 215. ***E-mail:*** **azerbaycan-ishiqlari@box.az**

“Azərbaycan işıqları” qəzetinin kompüterlərində yığılıb səhifələnir, **“CBS polygraphic production”** mətbəəsində çap olunur. Tiraj: 1000

Çapa imzalanıb:
18 yanvar 2016-cı il, saat 18.30.
***Məsul növbətçi:*** **S.QARAYEV**